20 noyabr 2024 №86 (2151) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## 20 noyabr – Ağdam Şəhəri Günü



"Mən dəfələrlə demişdim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi. Bu hüquq bizə BMT Nizamnaməsi tərəfindən verilib. Hər bir ölkə özünü müdafiə edə bilər və biz də özümüzü müdafiə etmişik... Bizim döyüş meydanındakı qələbəmiz siyasi qələbəmizi də şərtləndirdi. Ağdam rayonu bizə bir güllə atmadan, bir nəfər də şəhid vermədən qayıdır. Bu, böyük siyasi uğurumuzdur. Amma əgər o hərbi qələbə olmasaydı, bu da mümkün olmazdı... Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız" – Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu sözləri 2020-ci il noyabrın 20-də Ağdam rayonunun işğaldan azad olunması münasibətilə xalqa müraciətində demişdi.

2020-ci ilin 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi Zəfərin siyasi nəticəsi kimi ilk olaraq Ağdam şəhəri və Ağdam rayonunun otuz ilə yaxın erməni işğalı altında qalan kəndləri azad edildi. İşğalçı Ermənistan özü üçün faktiki kapitulyasiya aktı olan 10 noyabr 2020-ci tarixli Bəyanatdakı qrafikə əsasən, qoşunlarını Ağdamdan çıxardı.

İşğal dövründə düşmən, zəbt etdiyi digər ərazilər kimi, Ağdamı da yerlə yeksan etmişdi və Azərbaycana qaytarılan kabus şəhər idi. Ötən qısa müddətdə Azərbaycan dövləti işğaldan azad olunan torpaqları dirçəltməyə başlayıb və Ağdamda da geniş quruculuq işləri gedir.

Qeyd edək ki, Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixdə imzaladığı sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Sərəncama əsasən, 20 noyabr Ağdam Şəhəri Günü kimi təqvimimizə daxil olub. Yenidən qurulub abad olan yurd yerlərimiz kimi, Ağdam şəhəri də tezliklə sakinlərini qoynuna alacaq.

## C4C – "İqlim üçün mədəniyyət" təşəbbüsünün təqdimatı

COP29 çərçivəsində Azərbaycan tərəfindən irəli sürülmüş "İqlim üçün mədəniyyət" (C4C) təşəbbüsünün təqdimatı keçirilib.

C4C ənənələrin, incəsənətin və irsin davamlı təcrübə və dəyərləri necə inkişaf etdirə biləcəyini vurğulayaraq mədəniyyəti müsbət iqlim fəaliyyəti üçün təsirli qüvvəyə çevirməyə çalışır.

səh. 3

## G20 də COP29-dan uğurlu nəticə gözləyir

"G20 liderləri COP29 müzakirəçilərinə aydın mesaj göndəriblər: yeni uğurlu maliyyə hədəfi olmadan Bakını tərk etməyin".




Bu barədə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stilin bəyanatında qeyd olunub.

"Bu, borc böhranlarının yayıldığı, iqlim dəyişikliyinin həyatları məhv etdiyi, tədarük zəncirlərini zədələdiyi və inflyasiyanı artırdığı dünyada bir vacib siqnaldır. G20 liderlərinin qeyd etdiyi kimi, hazırda təmiz enerji və iqlim dəyişikliyinə dayanıqlı qlobal iqtisadiyyata sürətli keçid üçün daha güclü yeni milli iqlim planları vacibdir", – deyə o bildirib.

Qeyd edək ki, Bakıda COP29-un davam etdiyi vaxt Braziliyanın Rio-de-Janeyro şəhərində növbəti G20 sammiti (18–19 noyabr) keçirilib.

Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş və etməkdə olan böyük ölkələrini bir araya gətirən G20 platforması 1999-cu ildə formalaşsa da, liderlər səviyyəsində sammitlər 2008-ci ildən keçirilir. G20-də 19 dövlət və ayrıca tərəf kimi Avropa Birliyi təmsil olunur. 2023-cü ildə G20-yə tərəf kimi  Afrika Birliyi də qoşulub.

G20 sammitlərinə ev sahibi tərəfindən ayrı-ayrı ölkələr də dəvət olunur. 2015-ci ildə Antalyada keçirilən G20 sammitində ev sahibi Türkiyənin dəvəti ilə Azərbaycan da iştirak etmişdi.

# Dünyamızın gələcəyi mədəni irsin qorunmasından da asılıdır

### COP29-da Mədəniyyət Nazirlərinin 2-ci Yüksək Səviyyəli Görüşü keçirilib

Ölkəmizin ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) davam edir.

Sessiya çərçivəsində noyabrın 15-də Birləşmiş Ərəb Əmirlikləri, Braziliya və Azərbaycanın mədəniyyət nazirliklərinin təşkilatçılığı ilə mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə Mədəniyyət Nazirlərinin 2-ci Yüksək Səviyyəli Görüşü keçirilib.

Əvvəlcə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli tədbir iştirakçılarını salamlayaraq açılış nitqi söyləyib, görüşün əhəmiyyətini vurğulayıb.

ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik tədbirdə iştirakından məmnunluğunu bildirib.

Qeyd edib ki, iqlim dəyişikliklərinin mədəniyyətə təsiri get-gedə artmaqdadır: "Biz gələcəyimiz üçün mədəni irsimizi qorumağa çalışacağıq. Bugünkü tədbirdə də məhz bununla bağlı çıxış yollarından söz açılacaq".

Mədəni Mülkiyyətin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) baş direktoru Aruna Françeska Maria Gujral iqlim böhranına qarşı davamlı həllərin tapılmamasından təəssüfləndiyini




söyləyib. Bildirib ki, bu sahədə fundamental inkişafa nail olmaqla həm də öz mədəniyyətimizi qorumalıyıq.

UNESCO-nun Mədəniyyət sektoru icra aparatının rəhbəri Dorine Dubois deyib ki, bu gün iqlim dəyişikliyi nəticəsində çoxsaylı mədəni irs nümunəsi məhv olmaq üzrədir. Bunun qarşısını almaq üçün müxtəlif strategiyalar həyata keçirmək lazımdır.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev qurum tərəfindən mədəni irs abidələrinin qorunması istiqamətində görülən işlərdən danışıb: "Bu sahədə inkişafa nail olmaq üçün birgə səylər göstərilməlidir. Mən inanıram ki, mədəniyyət sahəsinə qayğı ilə eyni zamanda daha yaşıl dünyanı gələcək nəsillərə buraxa biləcəyik".

**davamı səh. 3-də**

## "Yer kürəsi uşaqların gözü ilə" – beynəlxalq fotomüsabiqəyə yekun vurulub

Noyabrın 18-də Heydər Əliyev Mərkəzində "Yer kürəsi uşaqların gözü ilə" adlı beynəlxalq fotomüsabiqənin qalibləri mükafatlandırılıb və sərgi açılıb.

Tədbirdə Prezidentin köməkçisi Anar Ələkbərov, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, mədəniyyət xadimləri iştirak ediblər.




Layihə IDEA-nın, COP29 Azərbaycan Əməliyyat Şirkətinin dəstəyi və "Reza Visual Academy" assosiasiyasının təsisçisi, tanınmış fotoqraf Reza Deqatinin təşəbbüsü ilə həyata keçirilib.

Tədbirdə çıxış edən Leyla Əliyeva bildirib ki, bu sərgi planetimizin gözəlliklərini və onun üzləşdiyi çağırışları uşaqların gözü ilə nümayiş etdirir: "Onların baxışlarında mərhəmət, anlayış və həssaslıq var. Mən düşünürəm ki, hər birimizdə təbiəti mühafizə etmək istəyi mövcuddur, ancaq vaxt keçdikcə bunu unuduruq. Bu sərgi bizə ayaq saxlamağı, dərindən nəfəs almağı, təbiəti və həyatı hiss etməyi bir daha xatırladır. Uşaqlar təkcə bizim gələcəyimiz deyil, onlar, həmçinin bizim bu günümüzdür. Yalnız uşaqlar bu günlə yaşamağı bacarırlar".

**davamı səh. 2-də**

## COP29-un qonaqları muzeylərdə

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün Bakıya gələn əcnəbi qonaqlar üçün mədəni proqram tərtib olunub. Onlar paytaxtdakı muzeyləri də maraqla ziyarət edirlər.

Beynəlxalq Muzeylər Şurasının (ICOM) baş direktoru Medea Ekner və qurumun Kommunikasiya şöbəsinin rəhbəri Kristian Soberq Azərbaycan Milli İncəsənət Muzeyində olublar.



Direktor Şirin Məlikova qonaqlara muzeyin tarixi, zəngin kolleksiyası, mədəni və təhsil proqramları, digər fəaliyyət sahələri haqqında məlumat verib. Milli İncəsənət Muzeyinin ICOM-un irəli sürdüyü devizlər istiqamətində müxtəlif layihələrlə aktiv iştirak etdiyi nəzərə çatdırılıb.

ICOM təmsilçiləri muzeyin daimi ekspozisiyası, COP29 çərçivəsində açılmış "Səttar Bəhlulzadə – təbiətin ecazkar nağılı", "Vəcihə Səmədova – 100: sənətkar ömrünün səhifələri", rəssam Məmməd Mustafayevin "Gizli və aşkar" sərgiləri ilə tanış olub, öz təəssüratlarını xatirə kitabına yazıblar.

**davamı səh. 3-də**

## Aktau 2025-ci ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olacaq

Qazaxıstanın Aktau şəhəri (Mangistau vilayəti) 2025-ci ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Bu barədə qərar TÜRKSOY Daimi Şurasının noyabrın 16-da Aşqabadda (Türkmənistan) keçirilən 41-ci iclasında qəbul edilib.

İclasda türkdilli xalqların mədəni irsinin qorunub saxlanılması və təbliği istiqamətində birgə səylər müzakirə edilib. Digər məsələlərlə yanaşı, 2026-cı ilin böyük türk mütəfəkkiri Ziya Göyalpın (1876–1924) 150 illiyi şərəfinə "Ziya Göyalp ili" elan edilməsi barədə qərar da qəbul edilib. Xatırladaq ki, TÜRKSOY-un 2025-ci il üçün müvafiq qərarı bir il öncə (2023) qəbul olunub. Gələn il Türk dünyasında xatirəsi yad ediləcək görkəmli şəxsiyyətlər arasında 100 illiyi keçiriləcək Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə də var.



Noyabrın 17-də isə "Anev – 2024: Türk dünyasının mədəniyyət paytaxtı" ilinin bağlanış mərasimi keçirilib. Mərasimdə "mədəniyyət paytaxtı"nın rəmzi Aktau şəhərinin rəsmilərinə təqdim edilib.

Qeyd edək ki, TÜRKSOY-un "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsinin əsası 2010-cu ildə türk dövlətləri başçılarının İstanbul sammitində qoyulub. Qərara əsasən, Türk dünyasından hər il bir şəhər "mədəniyyət paytaxtı" elan edilir.

Ötən illərdə Astana (2012, Qazaxıstan), Əskişəhər (2013, Türkiyə), Kazan (2014, Tatarıstan – RF), Mərv (2015, Türkmənistan), Şəki (2016, Azərbaycan), Türküstan (2017, Qazaxıstan), Kastamonu (2018, Türkiyə), Oş (2019, Qırğızıstan), Xivə (2020, Özbəkistan; pandemiya ilə bağlı 2021-ci ildə keçirilib), Bursa (2022, Türkiyə) şəhərləri "Türk dünyasının mədəniyyət paytaxtı" olub.

2023-cü ildə bu missiyanı Azərbaycan mədəniyyətinin paytaxtı Şuşa qəbul edib. 2024-cü ildə estafet Türkmənistanın Anev şəhərinə keçib.

Milli Dirçəliş Günü münasibətilə konsert



səh. 3



"İqlimlər və ilmələr" – beynəlxalq sərgi

səh. 5



Qırğızıstandan gələn "Adəm"

səh. 7

# Prezident ICESCO rəhbəri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.



Dövlətimizin başçısı COP29-da iştirak etdiyinə görə ICESCO rəhbərinə minnətdarlığını bildirib.

Salim bin Məhəmməd əl-Malik COP29-un yüksək səviyyədə təşkilinə görə təşəkkürünü ifadə edib.

Söhbət zamanı Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub. Dövlətimizin başçısı bu xüsusda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ICESCO-nun Mərakeşdə yerləşən qərargahında olmasının və Salim bin Məhəmməd əl-Malik ilə görüşünün onda çox xoş təəssürat doğurduğunu vurğulayaraq, orada göstərilən qonaqpərvərliyə görə baş direktora minnətdarlığını bildirib.

Görüşdə əlaqələrimizin daha da möhkəmlənəcəyinə əminlik ifadə olunub, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# İordaniya ilə mədəni əlaqələr üçün perspektivlər var

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) müxtəlif səviyyəli ikitərəfli görüşlər üçün də mühüm platformadır.

Noyabrın 16-da Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ilə İordaniya Haşimilər Krallığının şahzadəsi, UNESCO-nun xoşməramlı səfiri, Petra Milli Trestinin prezidenti xanım Dana Firas arasında görüş keçirilib.

Qonağı salamlayan nazir bu mötəbər tədbirdə iştirakına görə ona təşəkkürünü bildirib. Qeyd olunub ki, ölkələrimiz arasında qarşılıqlı etimada əsaslanan əməkdaşlıq əlaqələri mövcuddur. Mədəniyyət sahəsində də əlaqələri inkişaf etdirmək üçün perspektivlər var.

Xanım şahzadə ölkəmizə səfərindən və yüksək səviyyədə təşkil olunan COP29 tədbirində iştirakından məmnunluğunu dilə gətirib. O, noyabrın 15-də Azərbaycan Dövlət Pantomima Teatrında baxdığı tamaşanın (Çingiz Aytmatovun "Gün var əsrə bərabər" əsərinin motivləri əsasında hazırlanan "Manqurt" tamaşası – red.), aktyorların ifasının onda dərin təəssürat doğurduğunu bildirib.

Söhbət zamanı COP29 çərçivəsində müzakirə olunan məsələlər, eləcə də iqlim və mədəni irs gündəliyi ətrafında fikir mübadiləsi aparılıb.

# Türkiyənin mədəniyyət və turizm naziri ilə görüş

Azərbaycan və Türkiyə arasında mədəniyyətin bütün sahələrində uğurlu əməkdaşlıq qurulub.



Azərbaycanın mədəniyyət naziri Adil Kərimli bunu noyabrın 15-də COP29-da iştirak edən Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoyla görüşdə deyib.

Mədəniyyət sahəsində əlaqələrin inkişafından bəhs edən Adil Kərimli qeyd edib ki, bu günlərdə (2–10 noyabr) İstanbulda keçirilən 41-ci Beynəlxalq Kitab Sərgisində Azərbaycanın ilk dəfə "fəxri qonaq ölkə" qismində iştirak etməsi əlaqələrin yüksək səviyyəsinin göstəricisidir. Nazir sərgi müddətində Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə türkiyəli həmkarına təşəkkür edib.

8 Noyabr – Zəfər Günü münasibətilə təbriklərini çatdıran Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy ölkəmizin COP29 kimi mötəbər bir tədbirə yüksək səviyyədə ev sahibliyi etdiyini diqqətə çatdırıb. Bildirib ki, əgər Türkiyə COP31-i qəbul edərsə, Azərbaycanın bu sahədəki təcrübəsi öyrəniləcək. O, COP29 çərçivəsində ətraf mühit və mədəniyyət məsələlərinin də diqqətdə saxlanılmasının əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı iki ölkə arasında bir sıra istiqamətlərdə, xüsusilə də arxeoloji irsin öyrənilməsi və kino sahəsində əməkdaşlığın perspektivləri qeyd edilib. TÜRKSOY-un himayəsi ilə çəkilməsi planlaşdırılan "Molla Nəsrəddin. Çətin günlərimin dostu" bədii filmi ilə bağlı da söz açılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda türkiyəli nazirə xatirə hədiyyələri təqdim olunub.

***

Daha sonra nazirlər tədbir məkanındakı Azərbaycan, Türkiyə və Özbəkistan pavilyonları ilə tanış olublar. Türkiyə və Özbəkistan pavilyonları ilə tanışlıq zamanı Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov da iştirak edib.

# Beynəlxalq ictimaiyyət yeni iqlim maliyyə hədəfinin müəyyənləşməsini gözləyir

Paris razılaşmasının 6-cı bəndi üzrə on ildən artıqdır danışıqlar aparılsa da, məhz COP29-da bununla əlaqədar ciddi irəliləyiş əldə edilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunu noyabrın 17-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak edən ABŞ Nümayəndələr Palatasının üzvü Avqust Pflügerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına (1992-ci il) əsasən imzalanan Paris razılaşması 2020-ci ildən atmosferdə karbon qazının azaldılması üzrə tədbirləri tənzimləməli idi. Lakin 2015-ci ildə Parisdə keçirilən COP21-də konsensusla qəbul edilən sənəd müvafiq bəndlər üzrə mübahisələr səbəbindən hələ də imzalanaraq qüvvəyə minməyib.

Prezident İlham Əliyev bildirib ki, COP29 maliyyə mövzusuna həsr olunub və burada yeni iqlim maliyyə hədəfinin müəyyənləşdirilməsi gözlənilir. Beynəlxalq ictimaiyyət də bunu gözləyir. Beynəlxalq maliyyə və bank strukturları tərəfindən COP29-da iqlim maliyyəsi ilə bağlı verilən açıqlamalar da bu istiqamətdə ümidverici addım sayıla bilər.

Amerikalı qonaqlar Azərbaycanın COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırıblar.

Avqust Pflüger Nümayəndələr Palatasının sədri Mayk Consonun adından nümayəndə heyəti ilə görüşə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Ölkəmizə səfərdən məmnun qaldıqlarını deyən qonaq Azərbaycan-ABŞ əməkdaşlığının inkişafına töhfə verməyə hazır olduğunu vurğulayıb.

Dövlətimizin başçısı son 30 ildə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu və qarşılıqlı faydalı əməkdaşlığı qeyd edib. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nə toxunan İlham Əliyev o zaman ABŞ hökumətinin bu layihəyə dəstəyini xatırlayıb və bu müqavilənin ABŞ və onun müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunması işinə töhfə verdiyini, ötən dövr ərzində energetika sahəsində əməkdaşlığın möhkəmləndiyini deyib.

Dövlətimizin başçısı Azərbaycanın yaşıl enerji strategiyası haqqında danışaraq, ölkəmizin beynəlxalq tərəfdaşlarla birlikdə bərpaolunan enerjinin istehsalı potensialını artırdığını və 2027-ci ilədək Azərbaycanın enerji istehsalının 30 faizinin yaşıl enerjinin payına düşəcəyini bildirib.

Prezident İlham Əliyev Azərbaycanın bərpaolunan enerji potensialı əsasında Qara dənizin dibi ilə çəkilməsi nəzərdə tutulan elektrik enerjisi kabeli layihəsinə toxunub, bu xüsusda dövlətimizin region ölkələri – Gürcüstan, Rumıniya və Macarıstanla əməkdaşlığını qeyd edib. Həmçinin Mərkəzi Asiya ölkələri ilə Xəzər dənizi vasitəsilə yaşıl enerji sahəsində əməkdaşlığı, COP29 zamanı Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında yaşıl enerjinin inkişafı və transmissiyası haqqında imzalanmış sənədi vurğulayan İlham Əliyev deyib ki, Azərbaycan region ölkələri ilə birlikdə Xəzər və Qara dəniz hövzələrini birləşdirən yaşıl enerji dəhlizi formalaşdırır.

Prezident Azərbaycanın Xəzər dənizində böyük həcmdə bərpaolunan külək enerjisi potensialının olduğunu vurğulayıb, hidroenerji resurslarının da inkişaf etdirildiyini və bunun da böyük enerji istehsalı həcmlərinə çatacağını bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycan yaxın dövr ərzində 4 giqavat gücündə bərpaolunan enerjinin Avropa İttifaqı bazarına ixrac etmək imkanına malik olacaq.

Söhbət zamanı Azərbaycan ilə ABŞ arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edilib.

Prezident ölkəmizin regional sülh gündəliyinə sadiq qaldığını, onu dəstəklədiyini vurğulayıb, sülh müqaviləsinin təşəbbüskarının Azərbaycan olduğunu xatırladıb.

Ölkəmizin otuz il ərzində Ermənistan tərəfindən işğala və hərbi təcavüzə məruz qaldığını, hazırda Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini deyən dövlətimizin başçısı bu münaqişənin Azərbaycan üçün artıq keçmişdə qaldığını bildirib.

Azərbaycan Prezidenti Ermənistanın militarizasiya və silah yarışı siyasətinin regional sülh və təhlükəsizliyə təhdid olduğunu vurğulayıb, sülh müqaviləsinin imzalanması üçün Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının vacibliyini qeyd edib. Bildirib ki, Ermənistan tərəfindən konstitusion əsasda Azərbaycana qarşı ərazi iddiaları olmamalıdır.

Görüşdə ABŞ Konqresi ilə Azərbaycan arasında dialoqun gücləndirilməsi, qarşılıqlı səfərlərin artırılması məsələləri müzakirə olunub, Azərbaycan və ABŞ arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə toxunulub.

# ICOM və ICCROM ilə uğurlu əməkdaşlıq

## Muzey işi, mədəni irsin qorunması və bərpası məsələləri müzakirə olunub

COP29 çərçivəsində noyabrın 16-da mədəniyyət naziri Adil Kərimli Beynəlxalq Muzeylər Şurasının (ICOM) baş direktoru xanım Medea Ekner ilə görüşüb.



Qonağı salamlayan nazir bildirib ki, Azərbaycan dövləti tarixi-mədəni irsin qorunduğu muzeylərin fəaliyyətinə xüsusi diqqət göstərir. Azərbaycanın aparıcı muzeyləri fəaliyyətini müasir tələblər səviyyəsində qurur, dünyanın məşhur muzeyləri ilə, o cümlədən ICOM-la əməkdaşlığa əhəmiyyət verirlər.

ICOM-un rəhbəri qurum haqqında məlumat verib, həyata keçirilən tədbir və layihələrdən danışıb.

Medea Ekner Azərbaycan muzeylərinin şura ilə əməkdaşlığını yüksək qiymətləndirib, həmçinin milli komitənin qurumun işində aktiv iştirak etdiyini diqqətə çatdırıb.

Söhbət zamanı Azərbaycan muzeylərinin ICOM-un layihələrinə cəlb olunması, ölkəmizin təşkilatın 2025-ci ildə Dubayda (BƏƏ) keçiriləcək baş konfransında təmsil olunması məsələləri ilə bağlı müzakirə aparılıb.

***

COP29 çərçivəsində nazir Adil Kərimlinin Mədəni Mülkiyyətin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) baş direktoru xanım Aruna Françeska Maria Gujral ilə də görüşü olub.

Nazir qeyd edib ki, Azərbaycan dövləti mədəni irsin qorunmasını və bərpasını daim diqqətdə saxlayır. Azərbaycan həm dövlət səviyyəsində, həm də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun xətti ilə indiyə qədər bir sıra dinlərə mənsub yerli və beynəlxalq səviyyədə abidələrin, ziyarətgahların bərpasında, qorunmasında uğurla iştirak edib. Azərbaycan Parisdəki Luvr Muzeyinin İslam mədəniyyəti bölməsinin yenidən qurulmasına, Strasburq Kafedral kilsəsinin bərpasına, Roma Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmirinə maliyyə vəsaiti ayırıb.

Qonağa 30 ilə yaxın Ermənistanın işğalı altında olmuş Azərbaycan ərazilərində tarixi-mədəni irsimizə qarşı həyata keçirilən vandalizm və talan haqqında da məlumat verilib. Bildirilib ki, dağıdılıb talan olunmuş abidələrin bərpası istiqamətində sistemli iş aparılır.

ICCROM-un baş direktoru COP29-un yüksək səviyyədə təşkilinə və görüşmək imkanına görə təşəkkürünü bildirib.

Söhbət zamanı ölkəmizlə ICCROM arasında əməkdaşlığın inkişafı, mədəni irs nümunələrinin qorunması və bərpası sahəsində təcrübə mübadiləsinin aparılması, bu məqsədlə birgə təlimlərin, seminarların təşkili və digər məsələlərlə bağlı müzakirə aparılıb.

Görüşlərdən sonra hər iki qonağa xatirə hədiyyələri təqdim edilib.

# "Yer kürəsi uşaqların gözü ilə" – beynəlxalq fotomüsabiqəyə yekun vurulub

*əvvəli səh. 1-də*

Layihənin təşəbbüskarı Reza Deqati deyib ki, ikinci dəfə təşkil olunan müsabiqənin məqsədi balacaların gözü ilə dünyanın diqqətini təbiətə, onu sevməyə və qorumağa yönəltməkdir. Bildirib ki, Leyla xanım Əliyevanın təşəbbüsü ilə bu mövzuya müraciət etdik və qısa zamanda müxtəlif ölkələrdən yüzlərlə uşaq bu təşəbbüsə qoşuldu.

R.Deqati əlavə edib ki, 60 ilə yaxındır bu sənətlə məşğul olmasına baxmayaraq, azyaşlı uşaqların təbiət mövzusunda çəkdikləri fotoşəkillər onu heyrətləndirib: "Biz bu şəkilləri böyüklərə göstərdik ki, görsünlər uşaqlar nə deyirlər. Onlar hamını təbiəti sevməyə və qorumağa çağırır. İnanıram ki, hər kəs onların bu çağırışına həssaslıqla yanaşacaq".

Tədbirdə iştirak etməkdən məmnunluq duyduğunu vurğulayan BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva deyib: "Biz buraya gənclərə və uşaqlara sağlam planeti necə təmin etmək öhdəliyimizi müzakirə etmək üçün toplaşmışıq. IDEA İctimai Birliyi ilə uşaqların, eyni zamanda BMT-nin dostu olan Rezanın iştirakı ilə bu birgə səylərin bir hissəsi olmaqdan çox məmnunam".




Çıxışlardan sonra fotomüsabiqədə iştirak edən uşaqlara sertifikatlar təqdim olunub.

"Yer kürəsi uşaqların gözü ilə" müsabiqəsinin sərgisinə baxış keçirilib.

Qeyd edək ki, fotomüsabiqə oktyabrın 11-dən noyabrın 2-dək 18 yaşadək uşaq və yeniyetmələr arasında keçirilib. "Mən təbiəti sevirəm, çirklənmədən qoruyuram" şüarı altında gerçəkləşən müsabiqəyə 3000-dək foto təqdim olunub və yekunda 14 namizəd mükafatlandırılıb.

10-18 yaş kateqoriyası üzrə Filippin, Şri-Lanka və Maltadan üç nəfər birinci, ikinci və üçüncü yerə layiq görülüb. Eyni kateqoriya üzrə Banqladeş, Böyük Britaniya, İran, İrlandiya və Myanmardan olan 5 iştirakçıya yaradıcı və düşündürücü fotoşəkillərinə görə fəxri mükafatlar təqdim edilib.

10 yaşadək kateqoriya üzrə isə Fransa, İran, İsveçrə və Türkiyədən olan beş finalçı mükəmməl təqdimatlarına görə, Azərbaycandan olan fotoqraf isə ev sahibi kateqoriyasında xüsusi mükafatlara layiq görülüblər.

Müsabiqəyə 50 ölkədən uşaq və yeniyetmələr qatılıb.

# "Yaşılım, yaşılım, hara gedirsən?"

## AYB-dən "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Azərbaycan Yazıçılar Birliyi (AYB) təbiət mövzusunda şeirlərdən ibarət "Yaşılım, yaşılım, hara gedirsən?" adlı şeirlər toplusu nəşr etdirib.

AYB-nin sədri Xalq yazıçısı Anar kitaba "Dünyanın yaşıllıq həsrəti" başlıqlı ön söz yazıb.

Nəşrin ideya müəllifi AYB sədrinin müavini Rəşad Məcid, tərtibçisi AYB-də multikultural məsələlər üzrə məsul şəxs Xatirə Fərəcli, redaktoru Əməkdar mədəniyyət işçisi şair Vaqif Bəhmənlidir.

Kitab "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin dəstəyi ilə çap olunub. Birliyin rəhbəri Arzu Bağırovanın "Köksü gözəl qaya dağlara gün dəyəndə..." sərlövhəli məqaləsi də nəşrdə yer alıb.

"Kitabi-Dədə Qorqud"dan müasir Azərbaycan şairlərinin yaradıcılığına qədər böyük bir dövrü əhatə edən, təbiətə həsr olunmuş poetik əsərlərdən nümunələr toplanmış nəşrin adı mərhum şair Eldar Baxışın şeirindən götürülüb.

Nəşrin üz qabığında görkəmli rəssam Səttar Bəhlulzadənin "Mənzərə" əsəri verilib. Kitabda Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev, Mircavad, Arif Əziz, Zahir Məlikli, Yusif Mirzə kimi fırça ustalarının da əsərlərinin reproduksiyaları yer alıb.

# Dünyamızın gələcəyi mədəni irsin qorunmasından da asılıdır

## COP29-da Mədəniyyət Nazirlərinin 2-ci Yüksək Səviyyəli Görüşü keçirilib





əvvəli səh. 1-də

UNESCO-nun xoşməramlı səfiri, Petra Milli Trestinin prezidenti, İordaniya şahzadəsi xanım Dana Firas bildirib ki, mədəni irsi iqlim dəyişikliyi məsələlərinə inteqrasiya etmək artıq zərurətə çevrilib: "Ötən il təşkil edilən COP28-də bununla bağlı çox uğurlu tədbirlər keçirildi. Ümid edirəm ki, bu sessiya çərçivəsində adıçəkilən sahə üzrə önəmli addımlar atılacaq".

Ağa Xan İnkişaf Şəbəkəsi Ətraf mühit və iqlim komitəsinin sədri şahzadə Rəhim Ağa Xan qurumun mədəni irsin qorunması sahəsində gördüyü işlərdən söz açıb. Deyib ki, ətraf mühitin qorunması ilə həm də tarixi-mədəni mirasın mühafizəsinə töhfə vermək mümkündür.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova qeyd edib ki, bu gün iqlim dəyişikliyi bir çox sahələrə olduğu kimi, mədəniyyətə də təsir göstərir. Dünyada qlobal istiləşmənin təsiri ilə daşqınlar, fırtınalar baş verir, nəticədə tarixi abidələr də məhvolma təhlükəsi ilə üz-üzə qalır.

Daha sonra Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit naziri Amna bint Abdullah əl-Dahakın tədbir iştirakçılarına müraciəti diqqətə çatdırılıb.

COP29-un mədəni gündəliyini özündə əks etdirən videoçarx nümayiş etdirilib.

Sonra görüş məruzələrlə davam edib.

Nazir Adil Kərimli bildirib ki, ölkəmizin yaşıl enerji sahəsində gördüyü işlər beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir: "Biz bu gün keçirilən nazirlər toplantısından səmərəli nəticə gözləyirik. Bizim fəaliyyətimiz UNESCO, ICESCO və digər qurumların fəaliyyətləri ilə üst-üstə düşür. Biz mədəniyyətin önəmli bir vasitə olduğunu qəbul edir, onun ətraf mühitin qorunmasındakı rolunu qiymətləndiririk. Bu gün görüşün sonunda qəbul edəcəyimiz sənəd gələcək əməkdaşlığımızın əsasını təşkil etməklə yanaşı, müsbət iqlim fəaliyyətinin də əsasını qoyacaq".

Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu (GFCBCA) haqqında danışan Birləşmiş Ərəb Əmirliklərinin mədəniyyət naziri Salem bin Xalid əl-Qassimi qurumun üzvlərinin sayının artmasından məmnunluğunu bildirib. Qeyd edib ki, bu, sektorlararası daha güclü bir səs olacaq: "Bu görüşdə iqlim dəyişikliyi fəaliyyətində mədəniyyət ölçüsünü diqqətə çatdırmış olacağıq. Mədəniyyət və iqlim dəyişikliyi bir-biri ilə əlaqədardır. Düşünürəm ki, bu sahədə araşdırmalara daha çox investisiya qoyulmalıdır. Biz bütün tərəfləri nazirliklərarası əməkdaşlığa dəvət edirik".

Daha sonra Braziliya Federativ Respublikasının mədəniyyət naziri Marqaret Menezesin mövzu ilə bağlı videomüraciəti dinlənilib.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy COP29 çərçivəsində keçirilən görüşün ictimaiyyətin gözləntilərinə cavab verəcəyinə ümidvar olduğunu bildirib: "İqlim dəyişikliyi mədəniyyətimiz üçün də təhlükədir. Bu sahədə görülməli işlər çoxdur. Türkiyədə bu sahədə bir sıra addımlar atılır. Biz Azərbaycanın COP29-dakı təşəbbüsünü dəstəkləyirik və hər zaman qarşılıqlı əməkdaşlığa hazırıq".

Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov iqlim dəyişikliyinin fəsadları ilə hər addımda qarşılaşdıqlarını deyib. Bildirib ki, mədəni irs də bu təsirlərdən kənarda deyil. Buna görə də ətraf mühit məsələlərinə çox həssaslıqla yanaşmaq lazımdır.

O, COP29 kimi mötəbər sessiya çərçivəsində belə bir tədbirdə iştirakından məmnunluğunu söyləyib, tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib.

Pakistanın milli irs və mədəniyyət naziri Ataullah Tarar ölkəsinin iqlim dəyişikliyi nəticəsində gördüyü zərərlərdən danışıb. Qeyd edib ki, Pakistan 2022-ci ildə dünyanın ən böyük daşqınlarından birini yaşayıb: "Biz bu fəlakət nəticəsində müəyyən ərazilərdə öz mədəni mirasımızı da itirmək təhlükəsi ilə üz-üzə qalmışdıq. Ümid edirəm ki, bu gün Bakıda əldə etdiyimiz nailiyyətlə gələcəkdə bu sahədə öz fəaliyyətimizi uğurla davam etdirəcəyik".

Yunanıstanın mədəniyyət naziri Styliani Mendoni qonaqpərvərliyə görə Azərbaycana təşəkkürünü bildirib. Söyləyib ki, iqlim dəyişikliyinin nəticələrini aradan qaldırmaq üçün müxtəlif tədbirlər görülməlidir: "Bu sahədə risk xəritələri hazırlamalıyıq. Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu bu sahədə boşluqları doldurmaq üçün əməli addımlar atmalıdır. Bu qrup son illərdə bir çox ölkələrdə beynəlxalq seminarlar təşkil edib. Düşünürəm ki, bugünkü tədbir də bu sahədəki problemlərin həllində əhəmiyyətli rol oynayacaq".

Digər çıxış edən nümayəndələr mövzu ətrafında öz fikirlərini bildiriblər. Çıxışçılar mədəniyyətin iqlim siyasətində oynadığı güclü rolu xüsusi qeyd ediblər.

Çıxışlardan sonra Mədəniyyət Nazirlərinin 2-ci Yüksək Səviyyəli Görüşünün yekun sənədi qəbul edilib.

Yekun söz söyləyən COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev iqlim fəaliyyətində mədəniyyətin payının yüksək olduğunu deyib. Bildirib ki, qəbul olunmuş bu sənəddə mədəniyyət əsaslı iqlim tədbirlərinin əhəmiyyəti xüsusi vurğulanır.

Görüşün sonunda xatirə fotosu çəkdirilib.

**N.Məmmədli**

# "TikTok" platformasının heyəti ilə görüş

Mədəniyyət Nazirliyində "TikTok" videoməzmun sosial media platformasının nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə "TikTok"un dövlət siyasəti üzrə vitse-prezidenti Helena Lerç, Şərqi Avropada dövlət siyasəti və korporativ əlaqələr departamentinin direktoru Sergey Sokolov və şirkətin dövlət qurumları üzrə məsləhətçisi Emin Axundov iştirak ediblər.




Nazir Adil Kərimli Azərbaycanın ev sahibliyi etdiyi mötəbər COP29 tədbirinə qatıldıqlarına görə qonaqlara təşəkkürünü bildirib.

Söhbət zamanı Mədəniyyət Nazirliyinin dəstəyi ilə bu ilin əvvəlində həyata keçirilən "#TikTokdanÖyrən" (#LearnOnTikTok) müsabiqəsinin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, iki ay müddətində istifadəçilər ümumilikdə 20 mindən çox maarifləndirici video yaradaraq nümayiş etdiriblər.

Bildirilib ki, nazirlik bu platforma vasitəsilə mədəniyyət sahəsinə dair yeni aktual məzmunların yaradılmasında və bu istiqamətdə əməkdaşlığın davam etdirilməsində maraqlıdır.

Görüşdə mədəniyyətlə bağlı layihələrə dair fikir mübadiləsi aparılıb.

# BMM-də Milli Dirçəliş Günü münasibətilə konsert

## COP29-un qonaqları da izləyiblər



Beynəlxalq Muğam Mərkəzində Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin (bədii rəhbər və baş dirijor Mustafa Aşurov) 17 Noyabr – Milli Dirçəliş Günü münasibətilə konsert proqramı təqdim edilib.

COP29-un mədəni proqramı çərçivəsində təqdim edilən konsertin tamaşaçıları arasında əcnəbi qonaqlar da olub.

Orkestrin müşayiəti ilə Xalq artisti Gülnaz İsmayılova, beynəlxalq və respublika müsabiqələri laureatları Rəvanə Qurbanova, Günay İmamverdiyeva, Zabitə Əliyeva, Orxan Hüseynli, Seymur Həsənsoy, Anar Yusub, Rəvan Qaçayevin ifaları alqışlarla qarşılanıb.

Konsertdə Fikrət Əmirov, Hacı Xanməmmədov, Oqtay Kazımi, Aşqin Əlizadə, Süleyman Ələsgərov, Səid Rüstəmov, Vasif Adıgözəlov, Xan Şuşinski, Ələkbər Tağıyev, eləcə də xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib.

# C4C – "İqlim üçün mədəniyyət" təşəbbüsünün təqdimatı

Noyabrın 16-da COP29 çərçivəsində Azərbaycan tərəfindən irəli sürülmüş "İqlim üçün mədəniyyət" (C4C) təşəbbüsünün təqdimatı keçirilib.

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Fərid Cəfərov C4C təşəbbüsü haqqında məlumat verib. Qeyd olunub ki, mədəniyyət müsbət iqlim gündəmini formalaşdırmaq gücünə malikdir. Bu mənada, Azərbaycan COP29-da "İqlim üçün mədəniyyət" təşəbbüsünü irəli sürməkdən məmnunluq duyur. Hazırda bu təşəbbüs beynəlxalq miqyasda geniş təbliğ olunur və bir çox ölkə onu dəstəkləməkdə maraqlıdır. C4C ənənələrin, incəsənətin və irsin davamlı təcrübə və dəyərləri necə inkişaf etdirə biləcəyini vurğulayaraq mədəniyyəti müsbət iqlim fəaliyyəti üçün təsirli qüvvəyə çevirməyə çalışır.

Fərid Cəfərov həmçinin gəncləri C4C təşəbbüsündə fəal rol almağa çağırıb. Bildirilib ki, iqlim böhranı qarşısında planetimizi qoruyan yeni dəyərləri təşviq etmək üçün mədəniyyətin potensialından yararlanmaq imkanımız var.

Digər çıxış edənlər C4C təşəbbüsünün əhəmiyyətini vurğulayıb, onun konkret hədəfə yönəldiyini diqqətə çatdırıb, dəstəklərini bildiriblər.






Mədəniyyətin iqlim dəyişmələrinə yönələn gündəliyə daxil edilməsi istiqamətində aktiv fəaliyyətinə görə ölkəmizə təşəkkür ifadə olunub.

Daha sonra təqdimat iştirakçıları C4C təşəbbüsü ilə bağlı məlumatları özündə əks etdirən videoçarxı izləyiblər.

"Newman Partnership" təşkilatının təsisçisi, tanınmış təlimçi Martin Nyuman "İqlim üçün mədəniyyət" təşəbbüsünün məqsədləri haqqında danışıb.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

### Mədəniyyət davamlı gələcək üçün güclü vasitədir

Həmin gün COP29 məkanında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu (GFCBCA) və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "İqlim üçün mədəniyyət" adlı panel sessiya keçirilib.

Tədbirin moderatoru, Birləşmiş Ərəb Əmirlikləri Mədəniyyət Nazirliyinin baş incəsənət tədqiqatçısı Mahnaz Anvar Fancy qeyd edib ki, bu gün dünyada iqlim dəyişikliyi nəticəsində mədəni abidələrə də ciddi ziyan dəyir. Mədəniyyəti iqlim fəaliyyətinə daxil etmək üçün Azərbaycan tərəfindən "İqlim üçün mədəniyyət" təşəbbüsü irəli sürülüb. Bu təşəbbüs mədəniyyəti iqlim müzakirələrinin mərkəzinə çəkməsi baxımından əhəmiyyət daşıyır, eyni zamanda qlobal səviyyədə mədəniyyətin davamlı gələcək üçün güclü bir vasitə olduğunu göstərməyi hədəfləyir.

Diqqətə çatdırılıb ki, C4C təşəbbüsünə dəstək olaraq oktyabrın 8-də UNESCO-nın baş qərargahında Azərbaycanın COP29-da baş tutacaq mədəniyyət məzmunlu tədbirlərinə dair təqdimat keçirilib. Bu tədbir C4C-nin qlobal miqyasda iqlim-pozitiv mədəni fəaliyyətləri təşviq etmək üçün necə mərkəz nöqtəsi kimi xidmət edəcəyini nümayiş etdirib.

UNESCO-nun xoşməramlı səfiri, Petra Milli Trestinin prezidenti, İordaniya şahzadəsi Dana Firas, Afina Milli və Kapodistrian Universitetinin ətraf mühit və iqlim fizikası üzrə professoru Constantinos Cartalis, Asiya İnkişaf Bankı (ADB) İnstitutunun baş iqtisadçısı Akbar Riznaldi və UNESCO-nun Mədəniyyət sektoru icra aparatının rəhbəri Dorine Dubois mövzu ətrafında çıxış ediblər.

Çıxışlarda iqlim dəyişikliyinin mədəniyyətə vurduğu zərərdən danışılıb, ölkəmizin irəli sürdüyü C4C təşəbbüsünün əhəmiyyəti vurğulanıb. Həmçinin sessiyada mədəni yanaşmaların iqlimlə bağlı məsələləri təşviq etməsi, milli, beynəlxalq səviyyədə inklüzivliyin və davamlılığın artırılması, insanlar arasında təşviqatın aparılması, özəl-dövlət sektorları arasında tərəfdaşlıq, maliyyə imkanına çıxış və s. kimi mövzular müzakirə olunub.

Sonda çıxış edən COP29-un prezidenti, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev tədbirin önəmini vurğulayıb: "Çox şadam ki, bu gün təşkil olunan tədbir məhz mədəniyyətə həsr olunur. Mən də öz növbəmdə iqlim fəaliyyətinə töhfə verdiyinə görə Mədəniyyət Nazirliyinə təşəkkür edirəm. Biz də çalışacağıq ki, COP29-un yekun sənədində mədəniyyətin iqlim fəaliyyətindəki roluna yer ayıraq".

**Nurəddin**

# COP29-un qonaqları muzeylərdə

əvvəli səh. 1-də

Ziyarət zamanı ICOM ilə Milli İncəsənət Muzeyi arasında əməkdaşlığa dair fikir mübadiləsi də aparılıb.

***

COP29 çərçivəsində Azərbaycanda səfərdə olan Malayziyanın paytaxtı Kuala Lumpurun meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABİTAT) sabiq icraçı direktoru xanım Maimunah Mohd Şərif də Milli İncəsənət Muzeyini ziyarət edib.

Direktor Şirin Məlikovanın müşayiəti ilə muzeylə tanış olan qonaq görkəmli Azərbaycan rəssam və heykəltaraşlarının daimi ekspozisiya və sərgilərdə nümayiş etdirilən əsərlərinə maraqla baxıb.

Xatirə dəftərinə ürək sözlərini yazan Maimunah Mohd Şərif muzeydən xoş təəssüratla ayrılıb.

***

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinə də bu günlərdə COP29 iştirakçısı olan çoxlu sayda qonaq gəlir. Onların arasında Braziliya Xarici Əlaqələr Nazirliyinin müşaviri Qabriela Vieria da olub.



Muzeyin direktoru akademik Rafael Hüseynov qonaqla görüşüb. Səmimi söhbətdən sonra muzeydən braziliyalı diplomata "Nizami muzeyinin xalçaları" kitabı hədiyyə edilib.

Bakıya səfəri ilə bağlı təəssüratını bölüşən Qabriela Vieria qeyd edib ki, gələn il COP30 Braziliyada keçiriləcək. O, ölkəmizdə keçirilən tədbirlərdən çox faydalandığını, xüsusən könüllülərin fəaliyyətindən razı qaldığını deyib.

***

COP29-a qatılan Bəhreyn Krallığının nümayəndələri – ətraf mühitin mühafizəsi üzrə layihə mühəndisi Cihad Cəfər və memar Xulud əl-Əkbər də Nizami muzeyində olublar.

Onlar muzeydə Ərəb xilafəti, Xətib Təbrizi və Əbüləla əl-Məərri, İsmayıl ibn Yəsar haqqında məlumatları maraqla dinləyib, "Dörd fəsil" mövzusunda Təbriz xalçasına (XX əsr), Nizami Gəncəvinin "Xəmsə"si əsasında 1939-1941-ci illərdə Bakıda toxunmuş xalçalara baxıblar.

Qonaqlara muzeyin nəşrlərindən "Məhsəti Gəncəvi. Portret-oçerk" (ərəb dilində) və "Nizami muzeyinin xalçaları" kitabları təqdim olunub.

***

Polşa İqlim və Ətraf Mühit Nazirliyinin dövlət katibi və nazir müavini Kşiştof Bolesta və nümayəndə heyəti Milli Azərbaycan Tarixi Muzeyini ziyarət edib.



Qonaqlara Azərbaycanın zəngin mədəni və tarixi irsini əks etdirən eksponatlar barədə geniş məlumat təqdim olunub. Həmçinin muzeyin yerləşdiyi bina – məşhur polşalı memar İosif Qoslavskinin layihəsi əsasında inşa edilən tarixi tikili barədə ətraflı informasiya verilib.

Ekspozisiyadan böyük təəssürat aldığını vurğulayan Kşiştof Bolesta qeyd edib ki, polşalı memarların layihələri əsasında inşa edilmiş binalar Azərbaycan-Polşa mədəni əlaqələrinin tarixi köklərini əks etdirir.

№86 (2151)
20 noyabr 2024
www.medeniyyet.az

# Xankəndidə caz havası olacaq

Əslində, Xankəndidəki universitetdə mədəni həyatın bu qədər tez qaynayacağı gözlənilən idi. Mədəni mühitdə öz layihə və konsepsiyaları ilə tanınan bəstəkar Türkər Qasımzadənin Qarabağ Universitetində İncəsənət fakültəsinin dekanı, novator tarzən Arslan Növrəslinin İnstrumental ifaçılıq və musiqi müəllimliyi kafedrasının müdiri təyin edilməsi bundan xəbər verirdi.




Budur, noyabrın 22-də Qarabağ Universitetində maraqlı konsert proqramı baş tutacaq. İncəsənət fakültəsinin zalında "Arslan Növrəsli kvarteti"nin konserti olacaq. Arslan müəllim Bakıdan təşrif buyuracaq musiqiçi dostları – Əməkdar artist Ruslan Hüseynov, Nicat Aslanov və Elvin Bəşirov, həmçinin Qarabağ universitetində çalışan Əməkdar artist Kamran Kərimov ilə birlikdə çıxış edəcək.

Tar ifaçılığında ilk dəfə harmonik caz melodiyaları ilə çıxış edən məşhur musiqiçinin təşkil etdiyi konsertdə onun universitetdəki ilk tələbələri də səhnədə olacaqlar.

Konsert barədə xəbəri media hesabında paylaşan Arslan Növrəsli fikrini belə ifadə edib: "İlk dəfə Xankəndinin caz havasına qərq edəcəyik. Doğma, müqəddəs torpaqlarda çıxış etmək dünyanın heç bir konsert salonu ilə müqayisə oluna bilməz. Bir sıra maraqlı nömrələrlə sizi təəccübləndirəcəyimizdən əminəm".

**Gülcahan**

# Mingəçevir səhnəsində "Herostratı unudun"

Mingəçevir Dövlət Dram Teatrında rus dramaturqu Qriqori Qorinin "Herostratı unudun" pyesinin məşqlərinə başlanılıb. Tamaşa Akademik Rus Dram Teatrının rejissoru Emin Mirabdullayevin (dəvətli) quruluşunda hazırlanır.



İlin sonunadək premyerası nəzərdə tutulan səhnə əsərində rolları Xalq artisti Ella Yaqubova, aktyorlar Elvin Əkbər, Nargilə Abdullayeva, Lalə Abuşova, Paşa Salmanov, Asim Əmirov, Amil Fərzəliyev, Turqut Məsimli, Vüsalə Quliyeva oynayırlar.

"Herostratı unudun" tragikomediyasının süjetinin əsasında qədim Efes şəhərində dünyanın 7 möcüzəsindən biri hesab edilən Artemida məbədinin eramızdan əvvəl 356-cı ildə Herostrat adlı bazar alverçisi tərəfindən yandırılması hekayəsi dayanır.

Məşhur əsərin yeni səhnə yozumu haqqında danışan rejissor E.Mirabdullayev əsərdəki mövzunun daim aktual olduğunu və quruluşda həmin məqamları önə çıxaracağını deyib: "Ümid edirəm ki, səhnə işimiz mövzuya yeni rakursdan baxmağa kömək edəcək".

# Lənkəran teatrının "Prokuror"u Şirvana gəlib

Lənkəran Dövlət Dram Teatrı "Prokuror" tamaşasını Şirvan şəhərində nümayiş etdirib.



Şirvan şəhər Folklor evində göstərilən səhnə işini Şirvanın icra başçısı İlqar Abbasov, Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov, idarə və müəssisələrin rəhbərləri və ictimaiyyət nümayəndələri izləyiblər.

Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Məmmədhüseyn Əliyevin pyesi əsasında hazırlanan tamaşada gənc hüquqşünas Şöhrət Poladovun ucqar bir rayonun prokuroru kimi üzərinə düşən vəzifənin öhdəsindən layaqətlə gələrək cinayətkar dəstəni zərərsizləşdirməsindən bəhs olunur.

Tamaşanın quruluşçu rejissorları Əməkdar incəsənət xadimi Oruc Qurbanov və Anar Babalı, quruluşçu rəssamı Fuad Babazadə, musiqi tərtibatçısı isə Miranda Qurbanovadır. Səhnə əsərində rolları Sücəddin Mirzəyev, Qızılgül Quliyeva, Allahverən Babayev, Saleh Əzimzadə, Hikmət Cəfərov, Şəbnəm Hüseynova, Əlirza Şahbazi, Vəfa Hacızadə, Teymur Hacızadə, Elvin Məmmədov və başqaları canlandırıb.

# "Odunçunun nağılı" tamaşası yaşıl dünyaya çağırışdır

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən tədbirlərə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı və Naxçıvan Dövlət Energetika Xidməti də öz töhfəsini verib.




NMR Energetika Xidməti və Naxçıvan teatrının birgə layihəsi olaraq hazırlanan "Odunçunun nağılı" adlı səhnə əsəri nümayiş olunub. Tamaşanın leytmotivini yaşıl enerjiyə keçid, təbiətin mühafizəsi və ekoloji təmizliyə çağırış təşkil edir.

Yazıçı Eluca Atalının "Odunçunun nağılı" folklor nümunəsindən ilhamlanaraq qələmə aldığı eyniadlı səhnə əsərində qalaktikada yaşıl ada olan planetimizdə ekologiyanın qorunması, günəş işığının, suyun və küləyin önəmi vurğulanır.

Əsərdə hadisələr Xalanın Atanura nağıl danışması ilə başlayır. Xala nağıl danışdıqca tamaşaçılar sanki sehrli bir aləmə daxil olurlar. Bu aləmdə elə bil ağaclar rəqs edir və təbiət dil açaraq danışır. Təbiətə ziyan vurmağa çalışan odunçunun məqsədi meşədə ağacları doğrayıb və onları bazarda satmaqdır. Lakin Xala və Atanur ona mane olaraq hər ağacın nə qədər faydalı olduğunu izah edir və bəd niyyətindən çəkindirirlər.

# Milli dirçəlişdən müasir tərəqqiyə

Azərbaycanın yeni tarixinin əlamətdar günlərindən biri 17 Noyabr – Milli Dirçəliş Günüdür. 17 noyabr 1988-ci ildə Bakıdakı indiki Azadlıq meydanında ermənilərin Qarabağ iddialarına və azərbaycanlı əhalinin Ermənistandan deportasiyasına etiraz olaraq kütləvi mitinqlər başlayıb. Dekabrın 4-dək davam edən mitinqlər Azərbaycanın tarixinə milli dirçəliş hərəkatı kimi düşüb. 1992-ci ildə 17 noyabr Milli Dirçəliş Günü elan edilib.

Bu gün münasibətilə bölgələrdə müxtəlif səpkili tədbirlər keçirilib.

***





Gədəbəy rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, rayon mədəniyyət müəssisələri və MKS-nin birgə iştirakı ilə "Milli dirçəlişdən milli tərəqqiyə tarixi yolun başlanğıcı" adlı tədbir keçirilib. Çıxışlarda bildirilib ki, artıq 4-cü ildir Milli Dirçəliş Günü Azərbaycanın ərazi bütövlüyü şəraitində qeyd olunur. Sonda tədbir iştirakçıları əlamətdar günlə bağlı videoçarxı izləyiblər.

***

Masallı Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Masallı Dövlət Regional Kollecində "Xalqın istək və məqsədindən güc alan bir gün" mövzusunda tədbir keçirilib. Çıxışlarda vurğulanıb ki, Milli Dirçəliş Gününün əsas amalı bugünkü gerçəyi müasir dövlətimiz – ərazi bütövlüyümüzü tam bərpa etmiş, bütün torpaqları üzərində suverenliyi bərqərar olmuş Azərbaycandır.

***





Şabran rayon Heydər Əliyev Mərkəzi və Quba-Xaçmaz RGİİ-nin Şabran rayonu üzrə gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə "17 noyabr milli birlik və həmrəylik günüdür" mövzusunda dəyirmi masa keçirilib.

***

Lerik rayon Mərkəzi Kitabxanasında təşkil olunan tədbirdə tarixin müxtəlif mərhələlərində Azərbaycan xalqının başına gətirilən bəlalardan bəhs olunub. Bildirilib ki, bütün bunlara rəğmən xalqımız azadlıq, müstəqillik amallarını reallığa çevirməyə nail olub, tarix səhnəsində öz adını yazdıra bilib.

***

Ağstafa rayon Mədəniyyət Mərkəzinin rayon MKS ilə birlikdə keçirdiyi tədbirdə xalqımızın azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən Milli Dirçəliş Gününün Azərbaycanın müstəqilliyinin bərpa edilməsində tarixi rol oynadığı qeyd olunub.

***

Tovuz rayon Heydər Əliyev Mərkəzində rayon mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə "17 noyabr milli birlik və həmrəylik günüdür!" mövzusunda tədbir keçirilib. Sonda Milli Dirçəliş Gününə həsr olunmuş film nümayiş olunub.

# Bölgələrdən müxtəlif səpkili xəbərlər



Səməd Vurğun adına Qax rayon Mədəniyyət Mərkəzində İsmayıl Dağıstanlı adına Qax rayon Xalq teatrı tərəfindən "Qayınana əməliyyatı" tamaşası nümayiş olunub.

Gülşad Paşayevanın quruluş verdiyi səhnə işində Şəmsəddin Quliyev, Yusif Qurbanov, İbrahim Paşayev, Vüsalə Mustafayeva, Aydan Əhmədli, Nəvai Əliyev və Ceyran Rəcəbova çıxış ediblər.

Tamaşanı Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin (RMİ) rəhbərliyi, mədəniyyət işçiləri və rayon sakinləri izləyiblər.

***



Mərkəzi Aran RMİ-nin əməkdaşları tərəfindən Vətən müharibəsi şəhidi Cəlaləddin Fərhadovun şəhadətə yüksəlməsinin növbəti ildönümü ilə əlaqədar ailəsi ziyarət olunub.

Cəlaləddin Fərhadov 44 günlük Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Şuşa rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 8-də Şuşa qələbəsindən 2 saat sonra şəhidlik zirvəsinə yüksəlib. Ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

***



Sabirabaddakı "Hophopnamə" kitab mərkəzində "Erudikon" adlı intellektual yarış keçirilib. Rayon Mərkəzi Kitabxanasının nəzdində fəaliyyət göstərən Sabirabad kitab klubu ilə birgə təşkil edilən yarışa həm Sabirabad rayonundan, həm də digər bölgələrdən komandalar qatılıb. "Mən bilmirəm" komandası yarışın qalibi olub. İlk 3 yerə layiq görülən komandalar müxtəlif hədiyyələr və sertifikatlarla mükafatlandırılıb.

***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS Mərkəzi Kitabxananın Uşaq şöbəsi tərəfindən "Uşaq hüquqları aylığı" (20 oktyabr – 20 noyabr) çərçivəsində "Hüquqlarımızı öyrənək" adlı maarifləndirici tədbir keçirilib. Şagirdlərə uşaq hüquqlarının tarixi, dövlət tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə məlumat verilib. Sonda "Sənin hüquq və vəzifələrin" adlı sərgiyə baxış olub.

***

Ağdam rayon MKS-nin Üçoğlan kənd kitabxanası "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar "Yaşıl dünyamızı qoruyaq!" adlı tədbir keçirib. Çıxışlarda ekoloji problemlər və onların həlli istiqamətində görülməli olan işlərdən danışılıb, COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyəti vurğulanıb.

***

Şəmkir rayon Mərkəzi Kitabxanasının Oxuculara xidmət şöbəsi "Uşaq hüquqları aylığı" çərçivəsində "Uşağın ailədə və cəmiyyətdə hüquqlarının qorunması" başlığı altında tədbir təşkil edib. Çıxışlarda şagirdlərə hüquqlarının pozulması hallarına qarşı necə davranmaları izah olunub.

***



Culfa şəhərində Vətən müharibəsinin şəhid leytenantı Yaqub Nəcəfovun xatirəsi yad olunub. Əvvəlcə şəhər qəbiristanlığında şəhidin məzarı ziyarət olunub. Sonra tədbir Y.Nəcəfovun ailəsinin yaşadığı mənzilin qarşısında davam edib.

Culfa rayon icra başçısının müavini Sara Hüseynova və digər çıxış edənlər şəhid zabitin döyüş yolundan, qəhrəmanlığından söz açıblar.

Daha sonra şəhidin xatirəsinə yaradılmış bulağın açılışı olub. Məhəmməd və Xuraman Nəcəfovlar övladlarının xatirəsini uca tutduqlarına görə hər kəsə təşəkkür ediblər.

Qeyd edək ki, Y.Nəcəfov Şuşa uğrunda döyüşlərdə şəhadətə ucalıb. Dövlət başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarına layiq görülüb.

***



Goranboy Rayon İcra Hakimiyyəti və Gəncə-Daşkəsən RMİ-nin birgə təşkilatçılığı ilə "Qışlaqda bir gün" adlı tədbir keçirilib. Tədbirdə qış fəslinə uyğun olan kulinariya çeşidləri, əl işləri, xalçaçılıq sənətinin nümunələri nümayiş etdirilib, at yarışları təşkil olunub. Tədbir daha sonra konsert proqramı ilə davam edib.

**Hazırladı: N.Məmmədli**

# Lənkəranda ekofestival



Lənkəran Şəhər İcra Hakimiyyəti, Dövlət Turizm Agentliyinin Lənkəran Regional Turizm İdarəsi və Lənkəran Dövlət Peşə Mərkəzinin birgə təşkilatçılığı ilə Qala xiyabanında "Yaşıl dünya naminə ekofestival" keçirilib.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunan festivalda Lənkəranın icra başçısı Taleh Qaraşov, Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncov və başqa rəsmilər iştirak ediblər.

Rayonda fəaliyyət göstərən sənaye, kənd təsərrüfatı emalı müəssisələri, milli parklar, mədəniyyət, idman, turizm, orta və peşə təhsili müəssisələri hər biri öz pavilyonları ilə festivala qatılıblar. Festivalda yerli istehsal və emal müəssisələrinin çoxçeşidli məhsulları, ayrı-ayrı təsərrüfatlarda yetişdirilən ekoloji cəhətdən yüz faiz təmiz məhsullar, milli və yerli mətbəx nümunələri, sitrus meyvələri, çay, yerli sənətkarların əl işlərindən ibarət məhsullar nümayiş olunub. "Nənələr" və "Babalar" folklor rəqs qrupları və digər musiqi kollektivlərinin ifasında bədii proqram təqdim edilib.

# "Qadınlar danışarsa" – Gəncə teatrında premyera

Gəncə Dövlət Milli Dram Teatrında türk dramaturqu Birgül Gülər Yaşıloğlunun "Qadınlar danışarsa" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın premyerası olub.



Teatrın baş rejissoru Elşad Əhmədovun quruluş verdiyi tamaşada Xalq artisti Pərvanə Qurbanova, Əməkdar artist Kəmalə Məmmədova və digər aktrisalar rol alıb. Səhnə əsəri maraqla qarşılanıb.

Qeyd edək ki, ilin sonunadək Gəncə teatrının səhnəsində N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasının, eləcə də türkiyəli müəllif Toyqun Orbayın "İnsan oğlunun şərəfinə" əsərinin tamaşaları təqdim olunacaq.

# Bu sərgidə gözünüz və könlünüz dinclik tapacaq...



Xəbər verdiyimiz kimi, noyabrın 15-də Azərbaycan Milli Xalça Muzeyində "İqlimlər və ilmələr" adlı beynəlxalq sərgi açılıb. Ölkəmizin ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunan sərgi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin təşkilatçılığı ilə keçirilir.

Noyabrın 30-dək davam edəcək sərgidə ölkəmizdən, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Meksika və Rusiyadan tanınmış rəssamların bəşəri dəyərə malik Azərbaycan xalça sənətindən, onun ənənəvi naxışlarından ilhamlanaraq yaratdıqları bir-birindən fərqli əsərlər yer alır. Sərginin məqsədi müasir sənətkarların qədim ənənələrimizə əsaslanaraq yeni üslubda və texnikada yaratdıqları əsərlər vasitəsilə tamaşaçıların diqqətini iqlim dəyişikliyinə qarşı mübarizənin, sağlam həyat tərzinin əhəmiyyətinə yönəltmək, ekoloji problemlərin həllinə, ətraf mühitin mühafizəsinə səsləməkdir.

Sərginin açılış mərasimində bir qələbəlik var idi. Bir sıra ölkələrin səfirləri, COP29-da iştirak etmək üçün ölkəmizə səfər edən qonaqlar və yerli mədəniyyət xadimləri və digər şəxslər qatılmışdı. İnsan seli səyrəndən sonra sərgilənən əsərlərlə yaxından tanış oluram. Xalça Muzeyi bu dəfə də fərqli bir layihə ilə ziyarətçiləri heyrətləndirə bilib.

İlk olaraq "Landşaft silsiləsi" və "Parıltı silsiləsi" adlı işlərdən söz açmaq istərdim. Əl işi olan bu xalçalar Şəmkir rayonunda fəaliyyət göstərən peşəkar toxucularla rəssam Aida Mahmudovanın işbirliyinin nəticəsidir. Onlar rəssamın dünyagörüşünü, onun ənənə və müasirliyin vəhdətindən ərsəyə gələn çoxqatlı fəlsəfi əsərlərinin mahiyyətini xalçalarda əks etdiriblər. Bu işlər cəmiyyətin gücünün, qadınların tükənməz yaradıcılıq enerjisinin sübutudur. Xalçalarda qədim sənətkarlıq texnikaları ilə müasir yanaşmanın harmonik ahəngi, keçmiş və müasir dövr arasındakı qırılmaz bağların təcəssümü əks olunub.



Sənətinə yaxından bələd olduğum, dəfələrlə müsahibə aldığım Elmira Abbaslının ənənəvi texnika ilə metal tullantılardan, əsasən konserv qutularından şəbəkə texnikasında hazırladığı zərgərlik məmulatları da sərginin maraqlı eksponatları sırasındadır. Qadın bəzək dəstinə "piyaləzəng" sırğa, "sinəbənd" boyunbağı və "aynalı" kəmər daxildir.

Əsərləri hər zaman sənət aləmində müzakirələrə səbəb olan Faiq Əhmədin təqdim etdiyi layihə də unikallığı ilə seçilir. Rəssamın ikinci ennalın beynəlxalq nişanı olan "Universal Recycling Symbol"u (sonsuzluq əlaməti olaraq Möbius lenti ilə qapanan üç ox) ifadə edən "Recycled" əsəri xovsuz xalça növlərindən olan cecimdən yaradılıb. Azərbaycan xalçalarının təsvir və ornamentlər sisteminin çağdaş müəlliflərin gələcək yaradıcılıq axtarışları üçün əsas mənbə olması və bunun milli ənənələrin qorunmasına zəmanət verməsi orijinal kompozisiyaya malik əsərin ötürdüyü əsas mesajdır.

Növbəti zalda sərgilənən daha maraqlı bir əsər isə "Dərviş"dir. Bu əsərin qarşısında xeyli insanın foto və video çəkdiyini görürəm. Əsər diplomat Nigar Axundovanın da diqqətini çəkib. Müəllifdən əsər haqqında məlumat alırıq. Məhər Məhərrəmov deyir ki, instalyasiyanı şüşə sənəti sahəsində apardığı təcrübələrin nəticəsi olaraq sintezləmə texnikasında modul hissələr əsasında yaradıb. Müəllif Azərbaycanın xovsuz xalça növü olan üzərində dəvə karvanı təsvir edilmiş şəddədən ilhamlanıb.

Sərgidə Məmməd Rəşidovun tullantı metal, məftil və s. kimi materiallardan dəvə karvanı "Yeni üfüq" əsərini, Milena Nəbiyeva "Azərbaycan Uşaqları" İctimai Birliyi ilə birgə corab toxunmasında istifadə olunan artıq saplardan yaratdığı "Bəhmənli" xalçasını seyr edirik. Rənginə və kompozisiya sxeminə görə sənətçini heyran edib. O, xalçalardan və ornamentlərin semantik mənalarından ilhamlanaraq şüşədən xalça yaradıb. Rusiyalı rəssam "Alovda doğulmuş" adlı əsərlə ictimaiyyətin diqqətini ətraf mühit problemlərinə yönəldir və sənətkarlıq nümunələrini yaratmaq üçün tullantılardan istifadə oluna biləcəyini göstərir. Sənətkar eyni ölçüdə, rəngi və forması uyğun gələn şüşə butulkaları toplayıb, onları əridərək "Gəncə-buta" xalçasının kompozisiyasını yaradıb.

Nnenna Okore (ABŞ) təkrar emal olunmuş qəzetlərdən, məftillərdən və akril boyadan hazırlanmış "Şans" adlı əsərini təqdim edib. Bu əsər dörd fəsli və qlobal istiləşmənin planetə təsirini metaforik olaraq əks etdirir. Burada rəssam tamaşaçıları ağlamaq üçün deyil, zövq almaq üçün bir dünya qurmağa səsləyir. Məhz bu baxımdan da əsər göz oxşayır.

Bir neçə gün əvvəl Meksika səfirliyinin təşkil etdiyi tədbirdə kiçik ölçüdə təqdim olunan taxta tozundan hazırlanan əsərin orijinal variantını da bu sərgidə görürük. Pedro Sezar Peralta "Kəsişən xətlər" əsəri ilə Azərbaycan və Meksikanın zəngin mədəni irsi olan xalça sənəti əsasında ənənələri, mədəniyyətləri birləşdirmək ideyasını reallaşdırıb. Əsər Bakıda keçirilən COP29-a həsr olunub.



Təranə Əliyeva isə 11 nömrəli İnteqrasiya təlimli internat məktəbinin şagirdləri ilə birgə xalça toxunan zaman sapların kəsilməsindən yaranan tullantılardan xalça yaradıb. Xalça ilin dörd fəslini təcəssüm etdirir.

Beynəlxalq sərgidə rusiyalı, meksikalı, ABŞ və BƏƏ-dən olan rəssamların əl işləri maraq doğurur. Diqqətçəkən qonaqlardan biri də Natalya Boçkarevadır. Aktrisa kimi məşhur olan Natalya həm də rəssamlıqla məşğuldur. Vaxtilə turist qismində Milli Xalça Muzeyini ziyarət edərkən burada nümayiş olunan eksponatlar xüsusilə "Gəncə-buta" xalçası öz

Əməkdar rəssam Taryer Bəşirovun "Təbiətdən xalça naxışlarına" əsəri və COP29-a həsr olunan "Yaşıl dünya" xalçası Azərbaycan təbiətini tərənnüm edir. Muzeyin Ənənəvi texnologiya şöbəsində 50 rəng çalarından istifadə edilməklə ərsəyə gətirilən xalçanın hanadan kəsimi də elə sərginin açılışında reallaşıb.

Təbiət, xalça, insan, ekoloji tarazlıq və kainat. Sərginin mesajı da təmiz dünya, keçmişə ehtiram gələcəyə ümiddir. Düşünürük ki, bu unikal sərgini izləsəniz, gözünüz, könlünüz dinclik tapacaq.

**Lalə Azəri**

# Filarmoniyada COP29-a həsr olunan daha bir konsert

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) üçün maraqlı repertuar tərtib edib.

Bu çərçivədə noyabrın 17-də növbəti konsertdə bədii rəhbər və baş dirijor Xalq artisti Fəxrəddin Kərimovun idarəsi ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri çıxış edib. Solistlər Səid Məmmədov (skripka) və İrina Mehdiyeva (piano) olublar.



Konsert proqramına klassik musiqi şedevrləri və müasir musiqi ənənələrini ahəngdar şəkildə birləşdirən Azərbaycan və Avropa bəstəkarlarının əsərləri – Cakomo Puççininin "Xrizantema", Klod Debüssinin "Ay işığı", Vaqif Mustafazadənin "Mart", Antonio Vivaldinin "Fəsillər" silsiləsindən "Qış", Astor Piazzollanın "Fəsillər" silsiləsindən "Bahar" əsərləri daxil edilib. Avstriya bəstəkarı Robert Fuksın 3 nömrəli serenada ("opus 21") əsəri Bakı səhnəsində ilk dəfə ifa olunub.

Səsləndirilən əsərlərdəki təbiət motivləri sənət prizmasından ətraf mühit problemlərinə diqqət çəkib. Çünki musiqi qlobal problemlərin həllində insanları birləşdirəcək universal bir dildir.

Xalq artisti Fəxrəddin Kərimov konsertdən sonra təəssüratını bölüşüb: "Kamera repertuarı kifayət qədər genişdir: orkestrin ehtiyatını və musiqi üfüqlərini genişləndirir. Digər tərəfdən, bu, müxtəlif üslublarda yazılmış musiqidir. Dinləyicilərimizə estetik zövq bəxş etməklə yanaşı, Azərbaycan musiqisini populyarlaşdırmaqla, mümkün qədər çox bəstəkarın müxtəlif üslublarda yaratdığı əsərləri ifa etməyə çalışırıq. Tamaşaçı dinləyirsə və bundan həzz alırsa, demək ki, biz düzgün yoldayıq və bu, həm də bizi ruhlandırır".

Orkestrin solisti İrina Mehdiyeva deyib: "Filarmoniyanın səhnəsində çıxış etmək həmişə xoşdur. Yaradıcılıq prosesində tez-tez qastrol səfərlərində oluruq, lakin ən yaxşı olanı ev səhnəsidir. Ən tələbkar tamaşaçı sizi çoxdan tanıyandır və bu, böyük məsuliyyətdir. Hər şeyin yaxşı getdiyinə çox şadam. Maestro əla proqram seçib, klonsert gözəl alındı".

Solist Səid Məmmədov da COP29 günlərində əcnəbi qonaqların da yer aldığı tamaşaçı zalı qarşısında çıxış etməyin onun üçün xoş olduğunu bildirib.

## Nigar Qəhrəmanova dəvət edir

Beynəlxalq müsabiqələr laureatı, "Royal College of Music London", "Norwegian Akademy of Music" kimi nüfuzlu ali məktəblərin məzunu, hazırda Norveçdə yaşayıb çalışan Nigar Qəhrəmanova illər sonra Bakıda konsert proqramı ilə çıxış edəcək.

Konsert dekabrın 4-də Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında keçiriləcək. Nigar Qəhrəmanova Xalq artisti Fəxrəddin Kərimovun rəhbərliyi ilə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə çıxış edəcək.

Proqrama daxil edilmiş əsərlər Azərbaycanda ilk dəfə ifa olunacaq. Musiqi axşamında üç ölkə bəstəkarının – Sevda İbrahimova (Azərbaycan), Jon Laukvik (Norveç) və Henrix Şmidtin (Almaniya) orqan və simli alətlər orkestri üçün konsertləri səslənəcək.

Nigar Qəhrəmanova öz sosial şəbəkə hesabında musiqisevərlərə konsertlə bağlı müraciətində qeyd edib ki, Sevda İbrahimova orqan və kamera orkestri üçün konsert bəstələmiş yeganə Azərbaycan bəstəkarıdır. Bu əsər 25 ildən sonra ilk dəfə ifa olunacaq. İfaçı bu əsəri müəllifin işıqlı xatirəsinə həsr etdiyini bildirib.

Əsərinin Bakı premyerasında iştirak etmək üçün Norveç bəstəkarı və məşhur orqan ifaçısı Jon Laukvikin də paytaxtımıza səfəri gözlənilir.

**Gülcahan**

# COP29-un qonaqları "Manqurt" pantomim tamaşasına baxıblar



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, COP29-da iştirak edən İordaniya Haşimilər Krallığının şahzadəsi, UNESCO-nun xoşməramlı səfiri Dana Firas və ICCROM-un (Mədəni Mülkiyyətin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəz) baş direktoru Aruna Françeska noyabrın 17-də Azərbaycan Dövlət Pantomima Teatrında "Manqurt" tamaşasını izləyiblər.



Dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanının motivləri əsasında hazırlanan səhnə əsərinin quruluş müəllifi Ceyhun Dadaşov, rəssamı Sənubər Səmədova, musiqi tərtibatçısı Elman Rəfiyev, plastik həll üzrə rejissoru Xalq artisti Bəxtiyar Xanızadədir. Tamaşada teatrın bütün aktyor heyəti çıxış edir.

2012-ci ildən teatrın repertuarında olan tamaşa bu mövsümdə sənətsevərlərə yeni üslubda təqdim edilir.

Səhnə əsəri maraqla qarşılanıb.

Sonda yaradıcı heyətlə xatirə şəkilləri çəkdirilib.

# Amsterdamda Firəngiz Əlizadənin əsərinin premyerası

Niderlandın paytaxtı Amsterdamda keçirilən 10-cu "Cello Biennale Amsterdam" festivalında Firəngiz Əlizadənin "Şövq" adlı yeni əsərinin premyerası olub.




"Amsterdam Sinfonietta" orkestrinin sifarişi ilə xüsusi olaraq bu festival üçün yazılmış violonçel konserti Vyanadan olan gənc virtuoz Kian Soltani tərəfindən ifa edilib.

Firəngiz Əlizadənin əsərinin premyerası böyük uğurla keçib. Müəllif və solist tamaşaçıların alqışları ilə dəfələrlə səhnəyə çıxıb.

Konsertdə həmçinin "Amsterdam Sinfonietta"nın musiqiçiləri Firəngiz Əlizadənin ABŞ-nin "Kronos" kvarteti üçün yazdığı məşhur "Dance" əsərini möhtəşəm şəkildə ifa ediblər.

"Cello Biennale Amsterdam" festivalı haqqında məlumat verən nəşrlər və musiqi jurnallarında Firəngiz Əlizadənin həyat və yaradıcılığına dair materiallar dərc olunub. Azərbaycan bəstəkarı "müasir akademik musiqinin canlı klassiki" adlandırılıb.

"De Nieuwe Muze" jurnalına müsahibəsində Firəngiz Əlizadə Azərbaycanın zəngin musiqi ənənələrindən, peşəkar musiqinin banisi Üzeyir Hacıbəylidən və onun bənzərsiz "Leyli və Məcnun" operasından danışıb. ARTE televiziya proqramında da "Cello Biennale Amsterdam" haqqında süjetdə Firəngiz Əlizadənin yeni əsərinin premyerasına diqqət yetirilib.

# ADMİU tələbələri Moskvada tamaşa göstəriblər



ADMİU-nun SABAH qruplarının aktyor sənəti ixtisası üzrə IV kurs tələbələri (Fətəli Abdullayev, Nurlan Ağayev, Emil Həmidov, Zeynəb İslamova, Cəfər Cəfərli) Moskva şəhərində keçirilən MDB ölkələrinin "GİTİS – master-klass" teatr festivalına qatılıblar.

Tələbələr noyabrın 14-də festival çərçivəsində Çingiz Aytmatovun eyniadlı povesti əsasında səhnələşdirilmiş "Dəniz kənarı ilə qaçan alabaş" tamaşasını göstəriblər.

Nümayişdən sonra Rusiya, Qırğızıstan, Özbəkistan nümayəndələri tamaşa haqqında müsbət fikir bildirib, aktyor oyununu və rejissor işini bəyəndiklərini vurğulayıblar.

Tamaşanın quruluşçu rejissoru ADMİU SABAH mərkəzinin rəhbəri Əməkdar artist Nofəl Vəliyevdir.

# "Tamahkar" bu dəfə Dərbənddə peyda olacaq

Görkəmli dramaturq Süleyman Sani Axundovun "Tamahkar" əsəri Dərbənd Dövlət Azərbaycan Dram Teatrında (Dağıstan, Rusiya Federasiyası) özünün yeni səhnə həyatını yaşayacaq.

Bu barədə teatrın baş rejissoru Əməkdar artist Sərvər Əliyev məlumat verib. Hazırda tamamlanma işləri aparılan tamaşa noyabrın sonlarında teatrsevərlərə təqdim olunacaq.

Səhnə əsərinə Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru Xalq artisti Firudin Məhərrəmov quruluş verir. Birhissəli komediyanın səhnə tərtibatçısı Dağıstanın Əməkdar rəssamı Dəmir İsakovdur.

Rolları Dağıstanın Əməkdar artistləri Əli Mövsüm Abbasov, Mahir Məlikov, Rəhilə Ömərova, Məhərrəm Ömərov, aktyorlar Hörmət Aslanov, Səidə Əliyeva, Sərxan Səmədov, Əli Ağalarov oynayırlar.

№86 (2151)
20 noyabr 2024
www.medeniyyet.az

"Vətən fədailəri"

# "Üç günə sağ-salamat qayıdacağam..."



Şəhidlər özünün ən dəyərli olanını, yəni həyatını Vətən uğrunda fəda edən qəhrəmanlardır. Bu qəhrəmanların həyat hekayəsi sadəcə bir insanın yaşamını deyil, millətin mübarizə və azadlıq əzmini təcəssüm etdirir.

"Vətən fədailəri" rubrikasında haqqında söz açacağımız şəhid Seymur Əzizalıyev məhz bu keyfiyyətlərə malik olub. O, uşaqlığından Vətənə duyduğu sevgini həyatının hər anına daxil edərək bu uca mərtəbəyə yüksəlib.

Seymur Teyyub oğlu Əzizalıyev 2004-cü il iyulun 27-də İmişli rayonunda anadan olub. İmişli şəhər Nizami Gəncəvi adına 2 nömrəli tam orta məktəbi bitirib.

Seymur kiçik yaşlarından hərb sahəsinə böyük maraq göstərib. Məktəb illərində vətənpərvərliyi, səmimiyyəti, nümunəvi davranışı ilə seçilib. 2020-ci ildə Vətən müharibəsi zamanı 10-cu sinif şagirdi olan Seymur hərbçi olacağı ilə bağlı qəti qərarını verib. Orta məktəb dövründə idmanla da məşğul olub, güləş və kikboksinq üzrə dəfələrlə yarışlarda uğur qazanıb, hətta rayon üzrə birincilik də qazanıb.

2022-ci ildə hərbi xidmətə yollanıb, çevikliyi və bacarığı sayəsində normativlərin öhdəsindən layiqincə gələrək xüsusi təyinatlılar sırasında kəşfiyyatçı kimi seçilib.

2023-cü ilin 19-20 sentyabrında düşməni doğma yurdumuzdan tamamilə təmizləmək, uzun illərdir Qarabağda kök salmış erməni separatizminin axırına çıxmaq üçün müzəffər Ordumuz tərəfindən lokal xarakterli antiterror əməliyyatı həyata keçirilir. Seymur da bu şərəfli missiyada iştirak edir. O, qarşıya qoyulan döyüş tapşırıqlarını layiqincə yerinə yetirərək Xocavənd və Xocalı ərazisində gedən əməliyyatlarda xüsusi şücaət göstərir. Xankəndi şəhəri istiqamətində növbəti əməliyyat tapşırığını yerinə yetirən zaman düşmən tərəfindən atılan minomyot mərmisi Seymurun yaxınlığında partlayır və o, qəhrəmancasına şəhidlik zirvəsinə ucalır.

İmişli rayon Göbəktala kənd qəbiristanlığında torpağa tapşırılan Seymur Əzizalıyev döyüşlərdə göstərdiyi şücaətə görə dövlət başçısının sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilir.

Şəhidin anası Adilə Əzizalıyeva övladının vətənpərvər olduğunu deyir: "O, uşaqlığından hərbçi olmaq arzusunda idi. Əsgər geyimini çox sevirdi. Daim Vətən haqqında mahnıları dinləyirdi. Xidmət ərzində çəkdirdiyi şəkilləri mənə göndərib saxlamağımı tapşırırdı".

Şəhidin atası Teyyub Əzizalıyev Seymurla sonuncu dəfə ötən il sentyabrın 18-də əlaqə saxladıqlarını bildirir: "O, telefonla danışan zaman anasına dedi ki, məndən narahat olmayın, üç günə sağ-salamat qayıdacağam. Lakin qardaşı ilə son danışıqlarında "Qağa, müharibə artıq başlayıb, biz döyüşə gedirik. Anamdan, atamdan muğayat ol" deyə söyləmişdi. Seymur sevdiyi hərbi forma altında şəhadət şərbətini içdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Seymurun həyatında qəhrəmanlıq zirvəsi döyüşdə şəhidliklə tamamlandı. O öz canını Vətənin bütövlüyü uğrunda fəda etdi. Seymur kimi şəhidlərimiz öz mübarizəsi, Vətənə olan sevgisi ilə xalqın yaddaşında əbədi yaşayacaqlar.

Ruhu şad olsun.

**Nurəddin**

# Zülfüqar kimi...

Kimisə, nəyisə müqayisə edəndə və ya bənzədəndə "kimi" qoşmasından istifadə edirik. Onu tanıyanlar yaxşı bilir ki, güclü xarakteri, böyük Vətən sevgisi, yüksək peşəkarlığı, sarsılmaz qüruru, dəyişməz idealları vardı Zülfüqar Rüfətoğlunun. O, Vətənini sevdiyinə görə repressiya edilən və uzaq Sibirdə ölən babası Zülfüqar Əhmədzadənin adını daşıyırdı, bənzərsiz satirikimiz Rüfət Əhmədzadənin oğlu idi.



"Ot kökü üstə bitər" ifadəsini əbəs yerə deməyib atalar. Bəli, sözün bütün mənalarında, öz kökünün üstündə bitmişdi. 35 ildir yaşadığı və bildiyim qədər soyuqqanlı insanları olan uzaq Londonda isti Vətən sevdasını, qaynar təbini, doğma Bakıya bağlılığını itirmədi...

Bu günlərdə (9 noyabr) onun vəfat xəbərinə çox sarsıldım. Qardaşı, Azərbaycan Dövlət Kukla Teatrının direktoru Rəşad Əhmədzadənin sayəsində Zülfüqar bəyi yaxından tanımaq, ünsiyyətdə olmaq imkanı qazanmışdım.

Bir neçə il əvvəl Bakıya növbəti gəlişində atası haqqında xatirələrini soruşub yazı hazırlamışdım. Onda mənə anlaşılmaz, bəlkə də uzaq görünən bir fikri indi iliğim kimi gözlərimi qaraldır: "Atam "xalq düşməni"nin oğlu ağrısı, münasibəti ilə yaşadı və heç vaxt barışmadı"...

O, çox sevdiyi Bakıya ildə bir dəfə də olsa, gəlirdi. Gəlişlərinin birində də hələ ki, ilk şeirlər kitabı olan "Mavigözlü ögey ana" (Londonu belə təsvir edirdi) kitabını imzalı hədiyyə etdi. Şəkil çəkdirdik. Sonra onun gənclik dövrünün jurnalistikasından danışdı. Dedi ki, hansısa yazıya, hətta bir sətiraltı mənalı sözə görə də sanki adamı məhşər ayağına çəkirdilər. O bu zillətlərdən çox keçmişdi deyə ürəyi dolu idi. Söhbətimizin sonunda ona "Zülfüqar bəy, siz biz nəsil jurnalistlərin ustadısınız" dedim. Unutmuram, "Zarafat eləməyin, cavansınız, özünə ustad deyənlərə də çox fikir verməyin. Jurnalistika fərdi peşədir. Hərə özü kimidir. Ya var, ya da yoxdur. Heç bilmirəm bu "ustad" sözünü kim ortaya salıb" deyib xəfif güldü.

Əslində, israrla yox, siz ustadsınız deyəndə 6 dildə sərbəst danışıb 4-ünü ana dili kimi bilən, jurnalistikanın bütün janrlarında mükəmməl yazan, bundan başqa, zəngin poetik dünyası olan bir insanın bu qədər təvazökar olması məni məftun etmişdi.

İndi o görüşləri xatırladıqca qəhər qarışıq qürurla "Nə yaxşı belə bir insanı şəxsən tanımışam" deyib amansız itkinin verdiyi kədər yükündə özüm üçün nəfəslik açıram...

Artıq neçə gündür ki, onun köhnə-yeni yazılarını, şeirlərini, hətta statuslarını oxuyuram. Bilirsiniz məni ən çox nə cəlb edir? 35 il Vətəndən uzaqda yaşayasan, poliqlot olasan, amma sadə ünsiyyətində belə bir kəlmə də olsun əcnəbi sözdən istifadə etməyəsən. Hə, məqamdır, qoy onu da deyim. Zülfüqar bəyin oğlu Tural Əhmədzadə körpəlikdən Londonda yaşayır. Orta və ali təhsilini orada alıb. BBC-də çalışıb, indi də İngiltərənin nüfuzlu qəzetinin bölmə rəhbəridir. O, ötən il Bakıda olarkən geniş söhbətimiz oldu. 4-5 dil bilən Tural da atası kimi bir kəlmə olsun rus, ingilis sözlərindən istifadə etmədi. Anasını körpə çağında itirən Turalın ana dilini bu qədər mükəmməl mənimsəməsi də, sözsüz ki, atasının sayəsində mümkün olmuşdu. Axı o, oğluna

*"Bu dünyada ən kədərli layladır*
*Ana deyil, tənha ata laylası.*
*Körpə idin, sığınardın sinəmə,*
*Nə bilərdin sinəm kədər laylası..."* ilə böyütmüşdü...

Zülfüqar Əhmədzadə 22 iyun 1958-ci ildə Bakı şəhərində yazıçı, satirik şair Rüfət Əhmədzadənin ailəsində anadan olub. 1975-ci ildə 172 nömrəli orta məktəbi qızıl medalla başa vurub. 1980-ci ildə isə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu (indiki ADU) fərqlənmə diplomu ilə bitirib. 1985-ci ildən mətbuat sahəsində fəaliyyətə başlayıb, "Azərbaycan qadını" jurnalı, "Kommunist", "Səhər", müstəqillik illərində "Xalq qəzeti" və "Azərbaycan" qəzetlərində çalışıb. 20 ilə yaxın Londonda BBC radiosunun Azərbaycan xidmətində fəaliyyət göstərib. 1996-cı ildə BBC-nin xətti ilə Ermənistanda, işğal altındakı Şuşa və Xankəndi şəhərlərində olub. Bu səfərdən sonra "Ataşkəs kölgəsində" adlı radiooçerklər silsiləsini qələmə alıb.

Bədii yaradıcılıqla da məşğul olan Zülfüqar Rüfətoğlunun şeirləri mütəmadi olaraq müxtəlif mətbuat orqanlarında dərc olunub. Görkəmli bəstəkarlar Emin Sabitoğlu, Eldar Mansurov, Cavanşir Quliyev onun sözlərinə mahnılar yazıblar.

Zülfüqar bəy, əslində, nikbin adam idi. Ünsiyyətcil, dürüst, fikirlərində azad və müasir. Ölkəmizdə baş verən bütün hadisələrdən xəbərdar idi. Vətən, vətənpərvərlik, Qarabağ onun üçün şərəf, ləyaqət məsələsi idi. Mənə görə, Vətən müharibəmiz üçün yazılan ən təsirli bədii nümunələrdən biridir "Avtobus" şeiri.

*Heç vaxt unutmaram o avtobusu...*
*Adlar sadalandı, başlandı minik.*
*İki dayanacaq var idi yolda,*
*Biri qazilikdi, biri şəhidlik.*
*Nağmə deyə-deyə, rəqs edə-edə,*
*Sanki gedirdilər toya, düyünə,*
*Az sonra avtomat asacaqdılar,*
*Hələ yük görməyən zərif çiyinə.*
*Heç görməmişdilər,*
*Eşitmişdilər adını Şuşanın,*
*Ya Zəngilanın,*
*Heç 19 yaşı hələ yox idi,*
*Mənim əvəzimə ölən oğlanın...*
*Lap tezdən getdilər,*
*Güneş doğmadan,*
*Körpə balaları oyatmadılar,*
*Hamı qayıtmaqçün çıxmışdı evdən,*
*Getdilər... Bir daha qayıtmadılar"...*

Şeir məni təzədən kitaba qaytardı və onun bütün vəfasızlara şillə kimi dəyən, əqidəsini satmışları şallaqlayan misralarını dönə-dönə oxudum:

*Bilsək bizi kim satacaq,*
*Bəlkə heç nə danışmazdıq.*
*Özgə dərdə qarışmazdıq,*
*Təslim olub vuruşmazdıq,*
*Bilsək bizi kim satacaq...*

Bütün ölümlər kədərlidir, bilirəm. Amma qürbət ölümü, qəriblikdə torpağa tapşırılmaq bu balaca dünyanın bəlkə də ən böyük əzabıdır. Məni bir də bu göynətdi. Zülfüqar bəyin Bakıda dəfni ilə bağlı çalışan, amma oğlu Turalın istəyinə qarşı çıxa bilməyən, qardaş itkisindən bir neçə saatın içində dünyanın ən kədərli adamına çevrilən zarafatcıl, şən Rəşad müəllimin "Hamımız Allaha bir can borcluyuq və mütləq bir gün gəldiyimiz kimi də gedəcəyik. Amma məni yandıran iki Azərbaycan sevdalısının – baba və nəvə Zülfüqarın Vətəndə dəfn olunmamasıdır. Babam soyuq Sibirdə, qardaşım da uzaq Londonda qaldı" deyib uzun sükuta qərq olmasını izləmək çox ağır idi...

Axı Zülfüqar Rüfətoğlu Londona "ögey ana" demişdi, ona heç öyrəşməmişdi. Əvəzində "Mənim uzaqlarda bir şəhərim var" dediyi Bakıya sevgisini əz qala bütün şeirlərinə köçürmüş, həsrətini hər misrasına hopdurmuşdu.

90-cı illərin ortalarında qələmə aldığı bir şeirində, əslində, öz taleyini, ömrünün son akkordlarının ladını müəyyən etmişdi:

*Mən Bakıda doğulub*
*Londonda ölərəmsə,*
*Kim mənə ağlayacaq,*
*Ağla məni, yu məni,*
*Ağla məni o ki var.*
*Sən hardan biləsən ki,*
*Mən həyatda o qədər*
*Göz yaşları qurutdum,*
*Özüm öz günümə,*
*Ağlamağı unutdum.*

Elə bu misralarla da vidalaşıram Zülfüqar Rüfətoğlu ilə və deyirəm "Tələsdi, nə yaman tələsdi bu qış"...

"Tələsdi, nə yaman tələsdi bu qış, Gecikdi, gəlmədi gözlədiklərim" deyən şair ölümə tələsərək bizi xatirələrin ümidinə qoydu. Beləcə, bizim də "Yol çəkmək gözüm(üz)ün adəti oldu".

Şair qəlbi görün nələrə üzülür, nələrin dərdini çəkir:

*Qayıtmayan şeylər vardır,*
*Göz yaşı gözə qayıtmır,*
*Çox "hələlik" deyən dostlar,*
*Gedir və bizə qayıtmır.*

Zülfüqar Rüfətoğlu aktiv sosial şəbəkə istifadəçisi idi deyə düşüncələrini, yaradıcılığını davamlı izləyirdim. Günlərin bir günü bərk darıxdığını hiss etmək və bəlkə də etdirmək üçün bir şeir paylaşmışdı. Şeir məni bərk tutmuşdu:

*Daha zəng eləmirlər,*
*Darıxmıram heç mən də.*
*Əvvəlkitək dərd olmur*
*Qəfil yada düşəndə.*

**Həmidə Nizamiqızı**

# Lətif Kərimovun xatirəsi yad edilib




Noyabrın 17-də Azərbaycan xalça sənətinin elmi səviyyədə öyrənilməsi və təbliğində müstəsna xidmətlər göstərmiş, dünyada ilk dəfə Bakıda xalça muzeyinin yaradılmasının təşəbbüskarı olmuş Xalq rəssamı Lətif Kərimovun (1906–1991) anadan olmasının 118-ci ildönümü tamam olub.

Həmin gün Azərbaycan Milli Xalça Muzeyinin kollektivi Fəxri xiyabanda Lətif Kərimovun məzarını ziyarət edib.

Anım mərasimində Azərbaycan xalça sənətinə həsr edilmiş fundamental əsərləri ilə tanınan sənətkar haqqında söz açılıb. Bildirilib ki, Milli Xalça Muzeyi xalçaçı rəssamın doğma ocağı və yaradıcı fəaliyyətinin şah əsəridir. Muzeyin kolleksiyasının toplanılması, xalçaların elmi təsnifatının hazırlanması, sistemləşdirilməsi, peşəkar xalçaçı rəssam və sənətşünasların hazırlanması Lətif Kərimovun adı ilə bağlıdır. Onun "Əfşan", "Səfiəddin Urməvi", "Ləçəkturunc", "Butalı", "Şəbi-hicran", "Firdovsi", "Səməd Vurğun", "Vaqif", "Əsrlərin nəğməsi", "Əcəmi" və s. qiymətli xalça və eskizləri hazırda muzeyin kolleksiyasında qorunur.

Ömrünü xalçaçılıq sənətinin inkişafına həsr edən Lətif Kərimov bənzərsiz yaradıcılığı ilə Azərbaycanın incəsənət tarixində əbədi yaşayacaq.

# Uşaq poeziyasının hikmət və ziyası

XX əsr Azərbaycan poeziyasında təmsil ənənələrini davam etdirən şairlərdən biri tərcüməçi, Əməkdar incəsənət xadimi Hikmət Ziya olub. O, həmçinin uşaq ədəbiyyatının maraqlı nümunələrini yaradıb. Şairi anadan olmasının 105 illiyi münasibətilə yada salaq.



Hikmət Ziya oğlu Əfəndiyev 13 may 1929-cu ildə Şəki şəhərində dünyaya göz açıb. Ağdam şəhərində 1 saylı orta məktəbi bitirdikdən sonra 1947–1952-ci illərdə Azərbaycan Dövlət Universiteti Filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alıb. "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi, ədəbiyyat və incəsənət şöbəsinin müdiri, "Göyərçin" jurnalı redaksiyasında poeziya şöbəsinin müdiri, məsul katib vəzifələrində işləyib.

Ədəbi yaradıcılığa 1952-ci ildə "Azərbaycan pioneri" qəzetində çap edilən "Qeqola" adlı ilk şeiri ilə başlayan şair sonra dövri mətbuatda vaxtaşırı çıxış edib. İlk satirik şeirləri, eyni zamanda "Atamın hədiyyəsi", "Bahar gözəldir, ya qış?", "Milçək ürəyi" kitabları işıq üzü görüb.

1955-ci ildən şairin yaradıcılığında təmsil janrı xüsusi yer tutmağa başlayır. Şair 1986-cı ildə çap olunan "Ömrümün payı" kitabının ön sözündə bu barədə yazır: "Bir gün gözəl şairimiz İslam Səfərli mənə dedi ki, təmsillərin xoşuma gəlir, bu sahədə üzəngi parlada bilərsən. Bu sözlər məni ruhlandırdı, daha çox təmsillər yazdım".

Təmsilə olan maraq onda bu janrda maraqlı əsərlər yazıb-yaratmış Ezopun, Lafontenin, Krılovun, Qasım bəy Zakirin, Seyid Əzim Şirvani və başqa görkəmli təmsil ustalarının əsərlərini oxuyur. Bu, şairin yaradıcılığına da təsirsiz ötüşmür.

Xalq yazıçısı Mirzə İbrahimov Hikmət Ziyanın yaradıcılığını yüksək dəyərləndirərək yazırdı: "Azərbaycan yazılı ədəbiyyatı tarixində istedadını illər uzunu müntəzəm surətdə təmsil yazmağa həsr etmiş və bir janr olaraq təmsili ədəbiyyatımızda kamil dərəcəyə çatdırmış ilk sənətkardır".

Təmsilləri ilə oxucular tərəfindən maraqla qarşılanan şair bu janrda ümumilikdə üç mindən çox nümunə qələmə alıb. Bu əsərlərin hər biri mənə və məzmununa görə bu gün də aktuallığını qoruyub saxlayır. Təmsillərdə müəllif əliəyri, yaltaq və ikiüzlüləri satira atəşinə tutur. Şair təmsillərində müxtəlif aktual mövzulara toxunub. "Suda boğulan hekayə" təmsilində yazır:

*Bir romanı sıxdılar,*
*Çıxartdılar suyunu.*
*Gördülər selə düşən*
*Hekayə olduğunu.*

"Çalağan və bülbül" təmsili də ibrətamizdir:

*Çalağan gəlib dilə,*
*Bir gün dedi bülbülə:*
*– Öyrət mənə də nəğmə,*
*Şövq ilə gəlim dəmə,*
*Oxuyum, vurum cəh-cəh,*
*Dinləyən desin bəh-bəh…*
*Həmdəm olum güllərə,*
*Adım düşsün dillərə.*
*Bülbül dedi: – Çalağan!*
*Pəncəndə görünür qan.*
*Yırtıcılıqdır peşən.*
*Sənə yaddır bu gülşən.*
*Səndən nəğməkar olmaz,*
*Qızılgülə yar olmaz!*

Hikmət Ziya yaradıcılığında sevgi duyğularına geniş yer ayırıb. Həmin şeirlərdə ülvi bir hisslə sevən, eşqinə daim sadiq qalan və tez inciyib, tez küsən qürurlu bir insanın obrazı var.

Şairin "Məhəbbətsiz dünya bir heçə dönər", "Bağışla, ürəyim, məni bağışla", "Sənsizləşən günlərim", "Məntək duyan olarmı", "Küsüşdük, barışdıq" və s. şeirlərində sevən, sevilən, məhəbbət yolunda çətinliklərə mətanətlə dözən bir aşiqin səsi duyulur.

A.Məlikov, S.Ələsgərov, S.İbrahimova, M.Mirzəyev, E.Sabitoğlu, A.Rzayeva, Ə.Cavanşirov, İ.Babayeva, H.Nəcəfova, H.Xanməmmədov kimi tanınmış bəstəkarlar Hikmət Ziyanın yaradıcılığına müraciət ediblər. "Unutmarıq", "Bahar nəğməsi", "Solmazın mahnısı", "Sənin qəlbindən keçir", "Bəxtiyarlığım", "Sən olmasan", "Gözümdəsən", "Şirin yuxum olasan", "Yeganəm", "Qəşəng qız", "Gəl öyrət mənə", "Sən məni yad etsən", "Xoş gəlmisən", "Ay yaraşıqlı", "Mən sənsiz, sən də mənsiz" və s. mahnılar tanınmış müğənnilərin repertuarında yer alıb.

Şairin əsərləri keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunub. Onun özü də tərcümə sahəsində qələmini sınayıb. Rus şairi A.S.Puşkinin yaradıcılığından bir sıra nümunələri, eləcə də İ.A.Krılovun təmsillərini dilimizə çevirib.

Hikmət Ziya kino sahəsində də fəaliyyət göstərib. "Əli Bayramlı", "Azərbaycan qadını", "Qərib cinlər diyarında", "Dəcəl dovşan" filmlərinin ssenarisini yazıb. Bütün bunlara baxmayaraq Hikmət Ziya daha çox uşaq şairi kimi tanınıb, balacaların könül dünyasına xitab edib.

Ədibin Azərbaycan ədəbiyyatı qarşısındakı xidmətləri yüksək qiymətləndirilib, "Əməkdar incəsənət xadimi" fəxri adına (1986) layiq görülüb, respublika Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı (1988) ilə təltif edilib.

Coşqun şair, yorulmaz tərcüməçi Ümumittifaq Uşaq və Gənclər Ədəbiyyatı Şurasının, "Azərbaycan pioneri" və "Literaturnı Azerbaydjan" jurnallarının redaksiya heyətinin üzvü olub.

Mənа və hikmət çələngli əsərləri ilə Azərbaycan ədəbiyyatına gözəllik bəxş edən şair 2 avqust 1995-ci ildə Bakıda vəfat edib.

**S.Fərəcov**



# Qırğızıstandan gələn “Adəm”

## Bizə səhnədən hansı mesajları verdi?

Hamımızın evi olan Yer kürəsi böyük sıxıntılar içindədir. Savaşlar, təbiətin öz şıltaqlıqları, qısacası, dünyanı başına alan fəlakətlər onun düzənini ciddi şəkildə pozub. Ola bilər bunu bir çoxumuz çox gec başa düşmüşük, ya da heç fərqində deyilik. Amma ağacdan düşən sonuncu yarpaq qışdan sonrakı baharda açacaq tumurcuğun müjdəçidirsə, deməli, hələ nə isə işıq var...

Qırğızıstandan gələn və əsası gənclərdən ibarət truppanın 13-14 noyabr tarixlərində Bakıda, Akademik Musiqili Teatrın səhnəsində nümayiş etdirdiyi “Adəm” balet-tamaşası da bizə o işığı göstərdi.



Aktyor-rejissor Çaqaldak Zamirbekov və balet artisti Alina Mambetalievanın quruluşunda təqdim olunan balet-tamaşa Qırğızıstanın “Artist” teatr truppasının təşəbbüs qrupu ilə Abdılas Maldıbayev adına Qırğızıstan Milli Akademik Opera və Balet Teatrının birgə layihəsidir.

Nümayişdən öncə tamaşa haqqında geniş məlumat verən qırğız nümayəndələr vurğuladılar ki, “Qırğızıstan Tələbələri Yaşıl İqtisadiyyat Naminə” İctimai Birliyi və ATƏT-in Bişkekdəki Proqram Ofisinin dəstəyi ilə ərsəyə gələn bu layihənin əsl mahiyyəti dünya əhalisini planetin ekoloji tarazlığının bərpası üçün birgə mübarizəyə çağırışdır.

Sonra Azərbaycan mədəniyyət nazirinin müavini Murad Hüseynov və Qırğızıstanın təbii sərvətlər, ekologiya və texniki nəzarət naziri Mader Maşiyev səhnəyə dəvət olundular.

Onlar bu layihənin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi günlərdə Bakıda təqdimatının əhəmiyyətini, yaşıl dünya naminə birləşməyin, həmrəyliyin vacibliyini qeyd etdilər.

Birhissəli tamaşa, xoreoqrafik elementlərlə zəngin maarifləndirici performans da deyə biləcəyimiz “Adəm” maraqlı bir mövzunu – İnsan, Cəmiyyət və Təbiət arasındakı ziddiyyətləri önə çəkir. Özü də sadə təsvir ilə. Məsələn, hamımızın mənzilimizdən, üst-başımızdan silib-süpürüb təbiətin, böyük evimiz olan dünyanın “üstünə” atdığımız zir-zibillərlə. O zibillər ki, sonradan üzərimizə yük kimi, sel kimi gəlir...

Tamaşa boyu gərgin musiqi və rəqs elementləri təbii ehtiyatların davamlı istismarı, flora və faunanın məhv edilməsi, biznes və iqtisadi inkişaf naminə kütləvi istehsal və istehlakın tullantıları ilə Yer kürəsinin sürətlə çirklənməsinə və bütün bunların bəşəriyyəti qlobal ekoloji böhrana gətirib çıxarmasına kəskin vurğu idi.

Bu “Adəm” o Adəmdən daha günahkardır. O Adəmin günahının cəzası alma ilə dünyaya göndərilmək idisə, bu “Adəm”in cəzası dünyadan məhrumluqdur.

Ekoloji cəhətdən dayanıqlı gələcək uğrunda mübarizədə əsas addım ekoloji mədəniyyətin formalaşdırılması, yeni canlı təbiətə sevgi və dəyərə əsaslanan münasibətdir ki, qırğız sənətçilər səhnədə diqqəti buna yönəltmək üçün dəridən-qabıqdan çıxdılar. Bəzən sadə sinxronluğun pozulmasını, baletə xas ritmik elementlərdə kasadlığı nəzərə almasaq, maarifləndirici nöqteyi-nəzərdən nümunə vacib mesajını ötürə bildi. Başlıca mesaj isə təbii irsin qorunub saxlanılması, ekoloji mədəniyyətin inkişafı, ekoloji dayanıqlılıq naminə hərəkatda öncüllükdür.

Qırğızıstanda 2022-ci ildə elan olunan “Dağ ekosistemlərinin mühafizəsi və iqlimə davamlılıq ili” çərçivəsində hazırlanan balet tamaşası bizim auditoriya üçün yeni və bir o qədər də maraqlı idi.

“Adəm” həm də ümumilikdə qırğız gəncliyinin özündən əvvəlki nəslə etirazı kimi də anlaşıla bilər. Təbii ki, təbiətə sevgi və qayğı mənasında. Tamaşa seyrçini alternativ dünyaya qərq edərək, həyəcan siqnalı çalmağa səsləyir. Təbiət qanunları insan qanunları ilə mübarizə aparır, xəyallar və reallıq aləmləri bir-birinə qarışır və buradan məxluqlar doğulur: mələklər, yoxsa şeytanlar? Gənc balerina mələk qiyafəsində çırpınır, özünü oda-közə vuraraq insanları təbiəti sevməyə, qorumağa çağırır. Hətta bir gün təbiətin onlardan ağır qisas alacağını izhar edir. Amma insanlar ona qulaq asmırlar. Sonra üfunət qoxuyan zibil tayalarından bir Bədheybət yaranır və o hamını idarə etməyə, arxasınca aparmağa çalışır. Məhz bu zaman, bu müşkül məqamda hər kəsi bir sual düşündürür: Dünyanı necə xilas edək?!.

“Dünyada qüvvələr çoxdur, lakin təbiətdə insandan qüvvətli heç nə yoxdur. Təbiətlə insan üzvi əlaqədədir, lakin son illərdə ana təbiətlə onun övladı arasında müəyyən mübarizə başlanıb. Elə bil insan həddini aşaraq hər dəqiqə təbiətə təslim aktını imzalamağı təklif edir. Lakin onu unutmaq olmaz ki, insan təbiətlə maddi tarazlıq halında mövcuddur. O, özünə lazım olan hər cür maddi nemətləri təbiətdən götürür” deyirdi yüzilliklər öncə yunan mütəfəkkiri Sofokl.

Təbiətin harmoniyasının bərpası və yaşıl dünyanın qələbəsi ilə bitən “Adəm” də təxmini bu fikrin səhnə təsviridir.

Tamaşada diqqətimi cəlb edən məqam geyimlər, musiqi, dekorasiya, xoreoqrafiya – hər şeyin gənc rəssamlar, bəstəkarlar, rejissorlar və xoreoqraflar tərəfindən müasir mədəniyyət və mühitin fiqur, obraz və səslərindən ilhamlanaraq yaradılmasıdır. Ki, məhz bu məqama görə yuxarıda qeyd etdiyim və etmədiyim texniki və yaradıcı qüsurları görməzdən gəlmək olar...

**Həmidə**

# Bakıda Tolerantlıq Evi açılıb

16 noyabr – Beynəlxalq Tolerantlıq Günü münasibətilə Bakıda, İçərişəhərdəki tarixi binalardan birində Tolerantlıq Evinin açılışı olub.



Burada Azərbaycanın tolerantlıq tarixini əks etdirən ekspozisiya, üç ənənəvi səmavi dinin atributları, müqəddəs dini kitablar, etnoqrafik eksponatlar, dini liderlərə aid təltiflər, şəxsi hədiyyələr və s. nümayiş etdirilir.

Açılış mərasimində çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Azərbaycanda tolerantlıq ənənələri dünyaya nümunədir. Tolerantlıq Evinin özü də bir nümunədir.

Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri və nümayəndələri Tolerantlıq Evinin açılışını yüksək qiymətləndiriblər.

Azərbaycandakı Dağ Yəhudiləri İcmasının sədri Melix Yevdayev jurnalistlərə açıqlamasında bildirib ki, Tolerantlıq Evi ölkəmizdəki multikultural mühitin bariz nümunəsidir və buraya gələn qonaqlara Azərbaycanın nə dərəcədə tolerant ölkə olduğunu nümayiş etdirəcək.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi arximandrit Aleksi deyib: “Azərbaycanda bütün xalqlar və dinlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Dünya bunu təbii qarşılasa da, dinlər və xalqlar arasında fikir ayrılıqlarının çoxaldığı indiki dövrdə buna nail olmaq xüsusilə əhəmiyyətlidir. Azərbaycanda dini liderlərin mövqeyi dünyaya bir daha göstərir ki, müsəlmanlar, xristianlar və yəhudilər bu torpaqlarda birgə, sülh şəraitində yaşaya bilirlər”.

# “Planet ilə söhbət” – İçərişəhərdə uşaqların COP29 sərgisi



İçərişəhərdəki Şirvanşahlar Sarayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunmuş “Planet ilə söhbət” adlı ekoyaradıcılıq sərgisi açılıb.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi və Bakı Avropa liseyinin nəzdində fəaliyyət göstərən “Sərhədsiz diplomatiya” mərkəzinin təşəbbüsü ilə hazırlanan sərginin məqsədi insanların təbiət qarşısında olan məsuliyyətini nəzərə çatdırmaqdır.

Sərgidə 8-11 yaşlı uşaqların əl işləri nümayiş olunur. Həmin əl işləri vasitəsilə uşaqların təbiətə olan sevgisi və qayğısı, eləcə də Yer kürəsinin ekoloji problemləri özünəməxsus şəkildə ifadə olunur.

Açılış mərasimində çıxış edən “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparat rəhbəri İntiqam Babayev, Milli Məclisin sədr müavini Musa Qasımlı, Bakı Avropa liseyinin direktoru Zülfiyyə Veysova belə tədbirlərin uşaqların ekoloji şüurunun formalaşmasında mühüm rolunu vurğulayıblar.

Sərgiyə gələnləri Şirvanşahlar Sarayının girişində qurulan “Sülh ağacı” instalyasiyası qarşılayır. Nümayiş olunan əsərlər təbiətlə harmoniya içində yaşamağı, gələcək nəsillərə təmiz və sağlam bir dünya haqqında fəlsəfi düşüncələri təcəssüm etdirir.

“Planet ilə söhbət” sərgisi noyabrın 30-dək davam edəcək.

# AzMİU-nun Britaniya Memarlarının Kral İnstitutu ilə əməkdaşlığı genişlənir

COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Britaniya Memarları Kral İnstitutunun (RIBA) prezidenti Muyiva Oki Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) olub. Universitet rəhbərliyi ilə keçirilən görüşdə mövcud əməkdaşlıq və perspektivlər müzakirə edilib.



Universitetin rektoru professor Gülçöhrə Məmmədova RIBA-nın AzMİU üçün vacib tərəfdaş olduğunu vurğulayıb, Memarlıq fakültəsinin bakalavriat səviyyəsi üzrə RIBA akkreditasiyasından növbəti dəfə uğurla keçməsindən məmnunluğunu ifadə edib. Bildirib ki, RIBA akkreditasiyası AzMİU-nun memarlıq təhsilində dünya standartlarına cavab verdiyini təsdiq edir və bu, universitetin beynəlxalq səviyyədə tanınmasında mühüm addımdır.

Muyiva Oki AzMİU-nun nailiyyətlərini yüksək qiymətləndirib. Qeyd edib ki, Azərbaycan memarlığı, xüsusilə Bakı şəhərinin memarlıq mənzərəsi zəngin ənənələri və müasir yanaşmaları özündə birləşdirir. AzMİU bu irsi inkişaf etdirərək gələcək nəsillərə ötürən aparıcı təhsil ocağıdır.

AzMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri, Azərbaycan Memarlar İttifaqının sədri professor Elbay Qasımzadə Azərbaycan memarlığının inkişafı tarixindən, bu əməkdaşlığın milli memarlığın beynəlxalq müstəvidə tanıdılmasına verdiyi töhfələrdən bəhs edib.

Görüş zamanı RIBA-nın magistratura səviyyəsində də akkreditasiya prosesinin həyata keçirilməsi məsələsi müzakirə edilib, bunun üçün prosedur və meyarlar təhlil olunub.

Muyiva Oki AzMİU-nun bakalavr proqramının 2024–2029-cu illər üçün RIBA akkreditasiyası sertifikatını rektor Gülçöhrə Məmmədova təqdim edib.

RIBA-nın prezidenti AzMİU-nun Memarlıq fakültəsinin tələbələri tərəfindən hazırlanmış kurs işləri ilə tanış olub. Dekan Zahidə Məmmədova qonağa fakültənin fəaliyyəti, tədris proqramı və tələbələrin innovativ yanaşmaları haqqında ətraflı məlumat verib.

## Xatirə təqvimi — 20 – 22 noyabr

### Azərbaycan

**20 noyabr 1910** – Yazıçı Məmmədəli Hüseyn oğlu Tarıverdiyev (1910–1985) Ordubad rayonunun Dəstə kəndində doğulub. “Kölgəli dağ”, “Qəmküsar” pyeslərinin müəllifidir.

**20 noyabr 1930** – Tanınmış aktyor Gündüz Şəmsəddin oğlu Abbasov (1930–1995) anadan olub. “Onun böyük ürəyi”, “Bir qalanın sirri”, “Bizim küçə”, “Dədə Qorqud”, “Doğma sahillər” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb. Hekayələr yazıb, tərcümələr edib.

**20 noyabr 1930** – Ədəbiyyatşünas, publisist, professor, Əməkdar elm xadimi Qulu Qasım oğlu Xəlilov (1930 – 18.11.1995) anadan olub.

**20 noyabr 1935** – Xalq artisti, məşhur xanəndə, Qədir Çərkəz oğlu Rüstəmov (1935 – 14.12.2011) Ağdam rayonunda anadan olub. Muğam və xalq mahnılarının bənzərsiz ifaçısı olub. “Üzeyir ömrü” televiziya filmində Cabbar Qaryağdıoğlu rolunda çəkilib.

**20 noyabr 1940** – Məşhur xanəndə Keçəçi oğlu Məhəmməd (Məhəmməd Məşədi Xəlil oğlu; 1864–1940) vəfat edib. Şuşada doğulub. İfasında muğam və xalq mahnıları Varşava və Kiyevdə qrammofon vallarına yazılıb. 1926-cı ildən Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyasında müəllimlik edib.

**20 noyabr 1956** – Azərbaycan teatr sənətinin görkəmli simalarından biri, Xalq artisti Kazım Ziya (Kazım Cəfər oğlu Kazımzadə; 21.3.1896 – 1956) vəfat edib.

**20 noyabr 1975** – Üzeyir Hacıbəylinin Bakıdakı ev-muzeyinin açılışı keçirilib. Respublika hökuməti bu barədə hələ 1949-cu ildə qərar qəbul etsə də, muzeyin təşkili illər sonra, Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə reallaşdı.

**20 noyabr 2020** – Xalq artisti, tanınmış diktor Sabir Məmməd oğlu Ələsgərov (27.10.1937 – 2020) vəfat edib.

**21 noyabr 1926** – Ədəbiyyatşünas, yazıçı-publisist Nadir İsmayıl oğlu Vəlixanov (1926–1995) Şuşada anadan olub. Uşaq və yeniyetmələr üçün əsərlərin müəllifidir.

**21 noyabr 2007** – İslam ölkələri Mədəniyyət nazirlərinin Tripolidə (Liviya) keçirilmiş konfransında Bakı şəhərinin 2009-cu il üzrə “İslam mədəniyyəti paytaxtı” elan olunması barədə qərar qəbul olunub.

**21 noyabr 2020** – Xalq artisti Əjdər Qüdrət oğlu Həmidov (28.9.1953 – 2020) vəfat edib. Sumqayıt teatrında çalışıb, 1990-cı ildən Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**22 noyabr 1922** – Böyük bəstəkar, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Fikrət Məşədi Cəmil oğlu Əmirov (1922 – 20.2.1984) Gəncədə doğulub. Simfonik muğamlar (“Şur”, “Kürd-Ovşarı”, “Bayatı-Şiraz”), “Nizami” simfoniyası, “Azərbaycan kapriççosu”, “Sevil” operası və s. musiqi əsərlərinin müəllifidir. Bəstəkarın “Min bir gecə” baleti dünya musiqi xəzinəsinə daxildir. Filmlərə musiqi yazıb.

**22 noyabr 1922** – Xalq yazıçısı Hüseyn Abbas oğlu Abbaszadə (1922 – 12.12.2007) Bakıda anadan olub. Kitabları: “General”, “Ləpədöyəndə”, “Burulğanlar”, “Çəmbərəkənd balladası” və s.

**22 noyabr 1933** – Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov (1933 – 12.7.2006) Şəkidə doğulub. “Sən niyə susursan?”, “Onun böyük ürəyi” və s. filmlərin quruluşçu operatoru olub. “Tütək səsi”, “İstintaq”, “Ad günü”, “Ölsəm, bağışla”, “Təhminə”, “Otel otağı” və s. filmlərə quruluş verib.

**22 noyabr 1933** – Yazıçı-jurnalist Firudin Balakişi oğlu Ağayev (1933–1995) Lerik rayonunda doğulub. Əsərləri əsasında “Skripkanın sərgüzəşti”, “İşarəni dənizdən gözləyin” və s. filmlər çəkilib.

**22 noyabr 1938** – Xalq artisti, Dövlət mükafatı laureatı Həsən Ağaməmməd oğlu Məmmədov (1938 – 27.8.2003) Salyan rayonunda anadan olub. “Böyük dayaq”, “Gün keçdi”, “Yeddi oğul istərəm”, “İstintaq”, “Axırıncı aşırım” və s. filmlərdə yaddaqalan obrazlar qalereyası yaradıb. Akademik Milli Dram Teatrında çalışıb.

**22 noyabr 1940** – Müğənni, skripka ifaçısı, Əməkdar incəsənət xadimi, professor Rauf Zülfüqar oğlu Adıgözəlov (1940 – 29.6.2002) anadan olub.

**22 noyabr 2012** – Xalq artisti, görkəmli aktyor Yaşar Məmmədsadıq oğlu Nuri (3.9.1951 – 2012) vəfat edib. Akademik Milli Dram Teatrında fəaliyyət göstərib. Televiziya tamaşalarında, filmlərdə yaddaqalan obrazlar yaradıb.

**22 noyabr 2013** – Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi haqqında sərəncam imzalayıb.

**22 noyabr 2021** – Əməkdar incəsənət xadimi, bəstəkar Asya Baxış qızı Sultanova (16.10.1923 – 2021) vəfat edib. 1950-ci illərdən Moskvada yaşayıb, mahnılarını dövrün məşhur müğənniləri oxuyublar.

### Dünya

**20 noyabr 1910** – Rus yazıçısı və mütəfəkkiri Lev Nikolayeviç Tolstoy (9.9.1828 – 1910) vəfat edib. Əsərləri: “Ailə xoşbəxtliyi”, “Hərb və sülh”, “Anna Karenina”, “Dirilmə” (romanlar), “Kreyser sonatası”, “Kazaklar”, “Hacı Murad” (povestlər), “Canlı meyit” (pyes) və s.

**20 noyabr 1927** – SSRİ Xalq artisti Mixail Aleksandroviç Ulyanov (1927–2007) anadan olub. Çəkildiyi filmlər: “Dirilər və ölülər”, “Karamazov qardaşları”, “Qaçış”, “Voroşilov nişançısı” və s.

**21 noyabr 1694** – Fransız şairi, mütəfəkkiri və tarixçisi Fransua-Mari Volter (Fransua-Mari Arue François-Marie Arouet; 1694–1778) anadan olub. Əsərləri: “Edip”, “Brut”, “Zaira”, “Sezar” tragediyaları, “Mikromeqas”, “Kandid” fəlsəfi romanları və s.

**21 noyabr 1898** – Belçika sürrealist rəssamı Rene Fransua Gislen Magritt (René François Ghislain Magritte; 1898–1967) anadan olub.

**22 noyabr 1869** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1947) laureatı Andre Pol Qiyom Jid (André Gide; 1869–1951) anadan olub.

**22 noyabr 1916** – Amerika yazıçısı Cek London (Jack London – John Griffith Chaney; 12.1.1876 – 1916) vəfat edib. “Martin İden”, “Dəmir daban”, “Dəniz canavarı” və s. romanların müəllifidir.

**Hazırladı: V.Orxan**

# Qazaxıstan arxivlərini zənginləşdirir



Qazaxıstan Respublikası Mərkəzi Kino-Foto Sənədlər və Səsyazma Arxivində “Arxiv – 2025” adı verilmiş kompleks plan üçün işlərə başlanılıb. Məqsəd yaxın-uzaq xaricdə Qazaxıstan tarixinə dair materialları toplamaqdır.

Bu günlərdə arxivin nümayəndə heyəti Monqolustan Milli Arxivində elmi-tədqiqat işi aparıb. Qazaxıstan mediası xəbər verir ki, araşdırmaçı qrup Ulan-Batordan əlidolu qayıdıb. Monqolustan paytaxtındakı arxivdə aşkar edilən 90 foto və 92 dəqiqəlik kinolentin nüsxəsi Qazaxıstan tərəfinə təhvil verilib.

Kinoxronikada Monqolustanın Bayan-Ulgiy regionunda yaşayan qazaxların həyat və məişəti əks olunub. Fotoşəkillər isə bölgədə məskunlaşmış etnik qazaxların məişəti, yerli teatr kollektivlərinin fəaliyyəti, müxtəlif illərdə Monqolustana səfər etmiş Qazaxıstanın görkəmli incəsənət xadimlərinin çıxışları ilə bağlıdır.

**Gülcahan**

# “Azərbaycan mənim ruhumdur”

## Moskvada qarabağlı rəssam Cahid Camalın sərgisi

Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin (XTNS) “Azərbaycan” pavilyonunda “Cahid Camal: Azərbaycan mənim ruhumdur” adlı fərdi sərgi açılıb.

Rusiyanın Əməkdar rəssamı Cahid Camalın (1928–2011) yaradıcılığına həsr olunan sərgi Azərbaycan Beynəlxalq Bankı Moskva filialının (MBA-Moscow bank) dəstəyi ilə təşkil edilib.

“Azərbaycan” pavilyonunun direktoru Səadət Qədirova giriş sözündə diqqətə çatdırıb ki, Cahid Camal Qarabağda, Ağdam rayonunun Gülablı kəndində anadan olub. Sərgidə onun Qarabağa həsr olunmuş əsərləri – tarixi vətəninə sevgisini əks etdirən “Qarabağnamə” silsiləsi ilk dəfə olaraq ictimaiyyətə təqdim olunur. Rəssam bir müddət Monqolustanda yaşayıb, Ulan-Batorda Dövlət Pedaqoji İnstitutunun Qrafika kafedrasında məsləhətçi-müəllim işləyib, bu ölkəyə çoxlu sayda əsər həsr edib. Cahid Camal həmçinin XTNS-də “Azərbaycan” pavilyonunun baş rəssamı olub.

Ölkəmizin Rusiyadakı səfiri Rəhman Mustafayev çıxışında Azərbaycanın dünyaya çoxlu istedadlı insanlar bəxş etdiyini vurğulayıb. Bildirib ki, Cahid Camalın yaradıcılığı üç ölkə – Azərbaycan, Rusiya və Monqolustanla bağlı olub: “Bu təəccüblü deyil, çünki Azərbaycanın mədəniyyət və incəsənət xadimləri öz əsərlərində həmişə müxtəlif xalqların mədəniyyətini birləşdiriblər. Bu bizim dünyamızdır, həm də Azərbaycan sivilizasiyasıdır və Cahid Camal onun ən parlaq nümayəndələrindən biri olub”.

Ölkəmizin mədəni irsinə maraq göstərdiklərinə görə iştirakçılara təşəkkürünü bildirən diplomat qeyd edib ki, son illərdə XTNS-dəki “Azərbaycan” pavilyonu mədəniyyətimizin təbliği mərkəzinə çevrilib.

Politoloq Sergey Markov “Azərbaycan” pavilyonundakı tədbirlərə, o cümlədən Cahid Camalın sərgisinə böyük məmnuniyyətlə gəldiklərini deyib: “Minnətdarıq ki, “Azərbaycan” pavilyonu Rusiya ictimaiyyətini belə rəssamların yaradıcılığı ilə mütəmadi tanış edir”.









Cahid Camalın əsərlərinin kuratoru Svetlana Fedotova rəssamın Azərbaycana həsr etdiyi əsərlərin əksəriyyətinin ilk dəfə sərgiləndiyini diqqətə çatdırıb: “Moskvada yaşamasına baxmayaraq, Cahid Camalın rəsmləri onun Azərbaycana olan sevgisini ifadə edir. Rəssamın Qarabağa həsr etdiyi əsərlər heyranedicidir. O, bu rəsmlərdə işğal zamanı bir çoxu dağıdılmış küçələri və evləri əks etdirib”.

Sərgidə rəssamın 50-yə yaxın əsəri yer alıb. “Kəlbəcər”, “Şuşa”, “Natəvan”, “Qaçaq Nəbi” və digər rəsm əsərləri ziyarətçilərin xüsusi marağına səbəb olub.

Qeyd edək ki, Cahid Camal Bakıda Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirdikdən sonra təhsilini V.İ.Surikov adına Moskva Dövlət Akademik Rəssamlıq İnstitutunda davam etdirib. 50-ci illərdən Moskvada fəaliyyət göstərib. Teatrlarda dekorçu, kitab qrafikası sahəsində illüstrator kimi də tanınıb, “Soyuzmultfilm”də animator kimi də çalışıb. Əsərləri Moskvadakı Dövlət Rus Muzeyində, Dövlət Şərq İncəsənəti Muzeyində, Bakıda Milli İncəsənət Muzeyində, Ulan-Batordakı Tsedenbal Muzeyində, həmçinin müxtəlif ölkələrdə şəxsi kolleksiyalarda saxlanılır.

# Türk dünyası: ortaq əlifbadan sonra himn də olacaq

Türk Dövlətləri Təşkilatının (TDT) himni hazırlanacaq. Bu barədə məlumat verən Türk Dünyası İncəsənət Universitetləri Birliyinin sədri professor Erhan Özden bildirib ki, himnin mətni türk xalqlarının başa düşə biləcəyi şəkildə yazılacaq və o, türk xalqlarının milli-mənəvi hisslərini tərənnüm edəcək. Musiqini xüsusi komitənin ortaq rəyinə uyğun olaraq təyin edilən bəstəkar yazacaq.

Erhan Özden bildirib ki, türk xalqlarının ortaq lüğətinin hazırlanması da nəzərdə tutulur. Onun sözlərinə görə, lüğət bir neçə il ərzində, himn daha qısa bir müddətdə ərsəyə gələ bilər.

Bu arada hərfləri (34 hərf) ilə bağlı razılıq əldə edilən ortaq türk əlifbasının necə tətbiq ediləcəyi maraq doğurur.

Bu barədə danışan Türk Dil Qurumun başqanı professor Osman Mert qeyd edib ki, ortaq əlifba indiyədək latın qrafikalı yazıya keçmiş türk dövlətlərində hər hansı əlifba yeniliyini nəzərdə tutmur. Ortaq əlifba bundan sonra latın qrafikalı əlifbaya keçəcək ölkələr üçün tərtib edilib. O diqqətə çatdırıb ki, 1928-ci ildə Türkiyədə qəbul edilən əlifbadakı 29 hərf türk dilində sözlərin səs görünüşünü çatdırmaq üçün kifayət edir. Ortaq əlifbada yer alan 5 hərf isə (Q, X, Ň, Ə, Ŭ) digər türk dillərinin zənginliyini əks etdirir.

O.Mert Türk dünyasının ortaq əlifbası üzrə komissiyanın bu ilin sentyabrında Bakıda keçirilən üçüncü iclasında bu barədə müvafiq qərar qəbul edildiyini xatırladıb.

“Bu gün dünya birliyinin ən azı 70 faizi latın əlifbasından istifadə edir. Ortaq türk əlifbası yazının “çərçivəsini” formalaşdıracaq ki, bu da TDT ölkələrinin bir-birinə yaxınlaşmasına kömək edəcək, eyni zamanda, türk ölkələrinin dünya birliyinə inteqrasiyasına töhfə verəcək. Bu, çox vacibdir”, – deyə o bildirib.

O vurğulayıb ki, söhbət bir ölkədə tətbiq olunacaq əlifbadan getmir: “Məsələn, Azərbaycan öz əlifbasından istifadə etməyə davam edəcək. Qazaxıstan, Qırğızıstan və Özbəkistanda dəyişikliklər bu ölkələrin parlamentlərində təsdiqləndikdən sonra olacaq. Ayrı-ayrı TDT ölkələrinin əlifbalarında əlavə hərflər olacaq və onların 29-u bizim ölkələr üçün ümumi olacaq”.

Qeyd edək ki, Türkiyədən savayı TDT-yə üzv ölkələrdən Azərbaycanda və Türkmənistanda latın qrafikalı əlifba tətbiq olunur.

Özbəkistanda latın qrafikalı əlifbaya keçid 2021-ci ildə başlanıb.




Prosesin 2023-cü ildə yekunlaşacağı bildirilmişdi, lakin hələ başa çatmayıb.

Qazaxıstanda kiril hərflərindən latın qrafikalı əlifbaya keçidlə bağlı siyasi qərar 2017-ci ildə verilib. 2023–2031-ci illəri əhatə edəcəyi bildirilən proses faktiki olaraq hələ başlamayıb.

Qırğızıstanda bu məsələ bir neçə ildir gündəmə gəlsə də, hazırkı ölkə rəhbərliyi tələsməməyə üstünlük verir.

# Azərbaycan-Türkiyə turizm əməkdaşlığı yeni sazişlə inkişaf edəcək

Azərbaycan və Türkiyə arasında turizm sahəsində əməkdaşlığı gücləndirməyi və turizm əlaqələrini inkişaf etdirməyi nəzərdə tutan saziş imzalanıb. Noyabrın 15-də Bakıda Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyev və Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy tərəfindən imzalanan saziş turizm qanunvericiliyi istiqamətində məlumat mübadiləsi, turizm statistikasının təkmilləşdirilməsi, qastroturizm, turizm təhsili sahəsində əməkdaşlıq və investisiya təşviqinin əsasları kimi məsələləri əhatə edir.



DTA-dan verilən məlumata görə, sazişdə mediatur, infotur, tədbir və seminarların təşkili, birgə səyahət marşrutunun inkişaf etdirilməsi, qarşılıqlı təbliğat və marketinq fəaliyyəti ilə turist axınını artırmaq, təbii və mədəni irsin qorunması, eləcə də tanıdılması istiqamətində birgə fəaliyyətlərlə bağlı mövzular da əksini tapıb.

Qeyd edək ki, 2024-cü ilin yanvar-oktyabr dövründə Azərbaycana gələn Türkiyə vətəndaşlarının sayı 357 min 615 nəfər olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 16 faiz çoxdur.

# Turizm imkanlarımız Skandinaviya ölkələrində tanıdılıb

Azərbaycan Turizm Bürosu “Aviareps” şirkətinin təşkil etdiyi “Nordic Roadshow” adlı silsilə tədbirlərə qoşularaq turizm imkanlarımızı Skandinaviya ölkələrində təbliğ edib.




Dövlət Turizm Agentliyindən bildirilib ki, İsveçin Stokholm, Finlandiyanın Helsinki, Norveçin Oslo və Danimarkanın Kopenhagen şəhərlərində keçirilən tədbirlərinə hər birinə 50-dək yerli turizm şirkəti və media nümayəndələri qatılıb.

Turizm büroları, hava yolları şirkətləri, beynəlxalq hotel brendləri və kruiz şirkətlərinin də iştirak etdiyi tədbirlər zamanı B2B formatlı görüşlər keçirilib, Azərbaycanın mədəniyyəti, tarixi, təbiəti və turizm məhsulları barədə məlumat verilib.

Bu, Azərbaycan Turizm Bürosunun Skandinaviya ölkələri üzrə qatıldığı ilk tədbirdir. 2024-cü ilin yanvar-oktyabr aylarında İsveç, Finlandiya, Norveç və Danimarkadan Azərbaycana ümumilikdə 6898 nəfər səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 24 faiz çoxdur.

# İtaliyanın ən yaşamalı şəhəri

Milan yüksək həyat keyfiyyətinə görə İtaliyanın ən yaşamalı şəhərləri siyahısında birinci sırada qərarlaşıb.



Bu barədə Romanın Sapienza Universitetinin “ItaliaOggi” və “Ital Communications” şirkətləri ilə birgə keçirdiyi illik sorğunun nəticələrində deyilir. Müvafiq sorğu İtaliyada artıq 26-cı dəfə keçirilir.

İtaliyanın ən yaşamalı şəhərləri siyahısında ilk beşlikdə Milandan sonra Bolzano, Monza və Brianza (hər ikisi 3-cü yerdə), Bolonya, Trento yer alıb. Sorğuda iqtisadi inkişaf, ekoloji dayanıqlıq, yüksək səviyyəli təhlükəsizlik, əhalinin rifah halı, gəlir səviyyəsi, xidmətlər, infrastruktur, şəhər mərkəzinin canlılığı əsas meyarlar kimi götürülüb.

## Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (19 – 21 noyabr)

**20 noyabr** Dünya Uşaq Günüdür (Universal Children’s Day). 1989-cu ilin 20 noyabrında “Uşaq hüquqları haqqında Konvensiya”nın qəbulu ilə bağlı BMT Baş Assambleyası tərəfindən təsis edilib.

**21 noyabr** “Dünya televiziya günü” kimi qeyd olunur. 1996-cı il noyabrın 21-də BMT-də ilk dəfə Dünya Televiziya Forumu keçirilib. Həmin hadisə ilə bağlı BMT Baş Assambleyası tərəfindən (17 dekabr 1996) bu gün təsis edilib.



### 106 il əvvəl...

**19 noyabr 1918-ci ildə** Azərbaycan Milli Şurasının Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçirilən iclasında Cümhuriyyət Parlamentinin (Müəssislər Məclisi) çağırılması barədə qərar qəbul edilib. Parlamentin 120 deputatdan ibarət olması qərara alınıb: 80 yer müsəlman (azərbaycanlı) əhaliyə, 21 yer erməni əhalisinə, 10 yer ruslara, 4 yer milli azlıqlara (alman, yəhudi, gürcü, polyak), 5 yer neft sənayeçiləri və həmkarlar ittifaqlarına ayrılıb. Qərara əsasən, müsəlman fraksiyasının 44 nəfərini Milli Şuranın üzvləri təşkil etməli, 36 deputat əlavə olaraq şəhər və qəzalardan seçilməli idi. Parlament 7 dekabrda fəaliyyətə başladı.

### 79 il əvvəl...



**20 noyabr 1945-ci ildə** Nürnberq şəhərində faşist Almaniyasının ələ keçmiş rəhbərləri üzərində məhkəmə başlanıb. 1946-cı il oktyabrın 1-də başa çatan məhkəmədə 12 nəfər barəsində ölüm hökmü (asılmaqla) çıxarıldı. Məhkəmənin qərarı 1946-cı il oktyabrın 16-da icra olundu.

### 33 il əvvəl...



**20 noyabr 1991-ci ildə** erməni silahlı dəstələri Qarabağ münaqişəsi gedişində Azərbaycana qarşı ən böyük terror aktını həyata keçirib. Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında içərisində Azərbaycanın dövlət və hökumət rəhbərlərinin olduğu “Mi-8” vertolyotu raketlə vurulub. Vertolyotda olan 22 nəfər, o cümlədən dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri Məhəmməd Əsədov, Baş nazirin müavini Zülfü Hacıyev, SSRİ xalq deputatları Vaqif Cəfərov, Vəli Məmmədov, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, DQMV prokuroru V.Plavski, Dağlıq Qarabağ münaqişəsi regionunda Rusiya və Qazaxıstanın müşahidəçilər qrupunun rəhbərləri, jurnalistlər həlak olmuşdu. Faciə ilə bağlı Azərbaycanda üçgünlük (21–23 noyabr) matəm elan edilib.

### 32 il əvvəl...

**21 noyabr 1992-ci ildə** Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirilib. Təsis konfransında partiyanın məramnamə və nizamnaməsi qəbul olunub, rəhbər orqanları seçilib. Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev YAP-ın sədri seçilib.

### 22 il əvvəl...

**21 noyabr 2002-ci ildə** NATO-nun (Şimali Atlantika Müqaviləsi Təşkilatı) Praqa (Çexiya) sammitində yeddi ölkənin – Rumıniya, Bolqarıstan, Slovakiya, Sloveniya, Litva, Latviya və Estoniyanın alyansa dəvət olunması barədə qərar qəbul edilib. Sözügedən ölkələr 2004-cü ilin aprelində NATO-ya tamhüquqlu üzv oldular. Bu, SSRİ-nin süqutu və sosializm düşərgəsinin dağılmasından sonra alyansın Şərqə doğru ikinci genişlənməsi (1999-cu ildə Çexiya, Polşa, Macarıstan NATO-ya daxil olmuşdu) idi.

### 4 il əvvəl...

**20 noyabr 2020-ci ildə** 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq otuz ilə yaxın erməni işğalı altında qalan Azərbaycanın Ağdam şəhəri və Ağdam rayonunun kəndləri azad edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2638
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641